# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

09-10 (104-105) 07 may 2018-ci il *Xüsusi buraxılış* İctimai-siyasi qəzet


***Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, II Dünya müharibəsində, Böyük Vətən müharibəsində Azərbaycan Respublikasının fəaliyyəti, rolu çox böyük olmuşdur.***

***Heydər Əliyev***



*Şanlı tariximizin qəhrəman əsgərləri!*
*Sinənizi sipər etdiniz vətənə, torpağı qanınızla yoğurdunuz. Yaşadınız, döyüşdünüz, qələbə qazandınız-hünəriniz, rəşadətiniz və inamınızla.*
*Bu gün gözlərimizdə parlayan qələbə sevinci insanlığın, humanizmin və sülhün təcəssümüdür.*

# 73

## *Qəhrəman veteranlar, Qələbə bayramınız mübarək olsun!*

1941-1945
AZƏRBAYCAN VETERANI

# Ulu öndər Heydər Əliyevin xatirəsi xalqımız və respublika veteranları tərəfindən daim əziz tutulur

***04 may 2018-ci il tarixində Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə bağlı tədbir keçirilmişdir.***

Tədbirdə ümummilli lider Heydər Əliyevlə birgə işləmiş, onun idarəçilik məktəbində yetişmiş dövlət orqanlarının keçmiş yüksək vəzifəli əməkdaşları, ölkənin tanınmış insanları, o cümlədən, Heydər Əliyev dövründə Prezidentin hərbi məsələlər üzrə köməkçisi olmuş general-polkovnik Tofiq Ağahüseynov, Sərhəd Qoşunlarının Komandanı olmuş, general-mayor İskəndər Allahverdiyev, Sərhəd Qoşunlarının Komandanının birinci müavini olmuş, general-leytenant İnayət Xəlilov, Neft Sənayesi naziri olmuş Kamil Akimov, Kənd Təsərrüfatı naziri olmuş Kamil Seyidov, Mərkəzi Komitənin əməkdaşı olmuş Aydın Əliyev, Kənd Təsərrüfatı Nazirinin müavini olmuş İmran Əbilov, Milli Məclisin deputatları olmuş Viktor Timoşenko, Bəhram Zahidov, RVT Rəyasət Heyətinin üzvü Musa Bağırov, Azərbaycan Respublikası Prezident Adminstra-siyası İctimai-siyasi şöbəsinin əməkdaşı Rasim Mirzəyev, ziyalılar, İkinci Dünya, Qarabağ, Əfqanıstan müharibələri, əmək və Silahlı Qüvvələr veteranları, gənclər, media nümayəndələri iştirak etmişlər.



Tədbir başlamazdan əvvəl ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad olunmuşdur.

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov açaraq, sözü Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilova vermişdir.

C.Xəlilov Heydər Əliyevin həyatı və fəaliyyəti barədə geniş məlumat verərək demişdir: "Bu gün biz burada Azərbaycanın dahi oğlu, böyük dövlət adamı və görkəmli siyasətçi, xalqımız qarşısında tarixi xidmətləri olan ulu öndər Heydər Əliyevin 95 illik yubileyini qeyd etmək üçün toplaşmışıq. Heydər Əliyevin xatirəsi qədirbilən xalqımız tərəfindən daim əziz tutulur. Hazırda ölkənin müxtəlif ərazilərində keçirilən silsilə tədbirlər bunu bir daha sübuta yetirir ki, vaxtilə səsləndirilmiş "Heydər – xalq, xalq – Heydər" tendemi əbədidir və bu iki məfhumun ayrılmazlığı zaman keçdikcə daha qabarıq şəkildə üzə çıxır.



Heydər Əliyev zamanın fövqündə dayanan, illər keçdikcə dühası və əzəməti daha qüdrətli və parlaq şəkildə üzə çıxan nadir şəxsiyyətlərdəndir. Bu günədək Heydər Əliyev haqqında yazılan kitablar, çəkilən filmlər, neçə-neçə məşhur insanların dediyi fikirlər onun şəxsiyyətinin bütün çalarlarını əhatə edə, bu dahi şəxsiyyətin bütün məziyyətlərini tam aça bilməyib. Onlar ən yaxşı halda Heydər Əliyev şəxsiyyətinin bir neçə cəhətini ümumiləşdirməyə, yaxud həyatının müəyyən dövrü ilə bağlı həqiqətləri yenidən dəyərləndirib üzə çıxarmağa nail olublar. Bu isə gələcəkdə onun barəsində yeni-yeni kitabların yazılmasını, filmlər çəkilməsini zəruri edir.

Heydər Əliyevi xalqın, dövlətin tarixində əbədi yaşadan ən mühüm cəhətlərdən biri, bəlkə də birincisi onun Azərbaycanın ən çətin zamanlarında idarəetmə sükanını inamla ələ alaraq xalqı və dövləti düşdüyü bəladan qurtarması, onu tarixi inkişafın yeni mərhələsinə çıxarmaq bacarığıdır. Tarixi yaradan, onun gedişini dəyişməyə qadir insan kimi Heydər Əliyev dünyanın ən böyük dövlət adamları olan Bismark, Atatürk, Adenaur və digərlər ilə bir sırada dayanır. Artıq Azərbaycan Respublikası öz dövlət müstəqilliyinin bərpasının 27-ci ilini yaşayır. Azərbaycan xalqının tarixi nailiyyətimiz olan Dövlət müstəqilliyinin bərpası yolunda hansı bəlalarla qarşılaşdığı hamınıza yaxşı məlumdur.



Torpaqlarımıza təcavüz edən erməni daşnakları öz havadarlarının dəstəyi ilə Dağlıq Qarabağı Azərbaycandan qoparmağa çalışırdılar. Müstəqillik ideyasının geniş vüsət aldığı bir vaxtda Sovet İmperiyası Bakıda 20 Yanvar qırğını törətdi. Ulu öndər Heydər Əliyevin 20 Yanvar hadisələrinin ertəsi günü Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində keçirdiyi mətbuat konfransında 20 Yanvarda xalqımıza qarşı törədilən qanlı faciəyə siyasi qiymət verdi və bununla da xalqın müstəqillik uğrunda mübarizəsinə yeni təkan verdi. Azərbaycan daha böyük inad və inamla müstəqilliyə doğru irəlilədi və buna nail oldu.

Ancaq müstəqillik əldə olunsa da, ölkədə daxili və xarici pozucu qüvvələrin fəallaşması, hakimiyyətə gəlmiş komandanın səriştəsizliyi və davam etməkdə olan erməni təcavüzü respublikada vəziyyəti gərginləşdirmişdi. Bəzi silahlı dəstələrin başıpozuq hərəkətləri, daxildə qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması bu gərginliyi daha da artırmışdı. 1993-sü ilin əvvəllərindən ayrı-ayrı bölgələrdə separatçılıq və parçalanma meyllərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına birdəfəlik son qoyulması təhlükəsi ilə üzləşdirmişdi. 1993-cü ilin ortalarına doğru hakimiyyət böhranı daha kəskin xarakter almış, Azərbaycanın müstəqilliyi üçün təhlükə yaranmışdı".

Cəlil Xəlilov daha sonra demişdir: "Azərbaycanın görkəmli oğlu böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz onun yanında olmalı idi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib 1993-cü il iyunun 9-da Bakıya gəldi və bununla da daxili, xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Xilaskarlıq missiyasını öz üzərinə götürən ulu öndər vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrilmək yoluna qədəm qoydu".

Məruzəçi daha sonra Azərbaycanın bu gün siyasi, iqtisadi sahədə qazandığı böyük uğurlardan, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə regionun qüdrətli dövlətinə çevrilməsindən, dünyanın sürətlə inkişaf edən ölkələri sırasına çıxmasından danışmışdır.

Tədbirdə general-polkovnik Tofiq Ağahüseynov çıxış edərək demişdir: Bugünkü çıxışlarda Heydər Əliyevin dövlət quruculuğunun müxtəlif sahələrindəki geniş fəaliyyətindən bəhs edildi, onunla bağlı olduqca maraqlı xatirələr danışıldı. Mənsə bu dahi şəxsiyyətin ordu quruculuğu istiqamətində gördüyü işləri yada salmaq istəyirəm. Bilirsiniz ki, sovet dövründə Azərbaycanın hərbi cəhətdən inkişafı məsələlərinə yumşaq desək soyuq yanaşılırdı. Azərbaycanlılar hərbi xidmətdə qeyri-döyüş istiqamətlərində, daha çox da tikinti sahəsində xidmət edirdilər. Heydər Əliyevə qədər Azərbaycanın heç bir rəhbəri də bu məsələlərə lazımi diqqət göstərmədiyindən bizdə hərbi mütəxəssislər son dərəcədə az idi. Heydər Əliyev ölkə rəhbəri olduğu ilk dövrdə, 1972-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin təşkilinə nail oldu. O, azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasını da daim diqqət mərkəzində saxlayırdı. O dövrdə ali hərbi məktəbləri bitirmiş şəxslərin dövlət müstəqilliyin bərpasından sonra Silahlı Qüvvələrin formalaşmasında mühüm rolu oldu. Müstəqilliyin ilk illərində Azərbaycanın maliyyə imkanları o qədər də çox deyildi. Ancaq Heydər Əliyev həmin məhdud imkanlarla müasir ordu quruculuğu istiqamətində çox böyük işlər görülməsinə nail oldu. Azərbaycanın müasir ordusunun strukturu yaradıldı və sonrakı mərhələdə Möhtərəm prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin başçılığı altında bu işlər inamla və daha geniş miqyasda davam etdirildi. Azərbaycan ordusu ən müasir silahlar və texniki vasitələrlə təmin edildi. Bu gün bizim ordumuz regionun ən qüdrətli ordusu olmaqla, dünyanın 50 ən güclü və müasir ordusu sırasında yer alır. Bu çox böyük səylər və gərgin zəhmət nəticəsində mümkün olub və biz ölkənin müdafiə qüdrətinin indiki yüksək səviyyəsinə görə Heydər Əliyevə minnətdarıq. Bu gün ölkə rəhbəri tərəfindən uğurla davam etdirilən veteranlara qayğı və hərtərəfli diqqət siyasətinin əsası da Ulu öndər tərəfindən qoyulub və biz veteranlar bunu daim yüksək qiymətləndiririk. Heydər Əliyevin Azərbaycan dövləti və onun xalqı qarşısındakı tarixi xidmətləri gənc nəslə dolğunluğu ilə çatdırılmalı, onların bu dahi şəxsiyyətin əbədiyaşar irsinə sədaqət ruhunda yetişmələri üçün ardıcıl iş aparılmalıdır. Çünki bu irs Azərbaycanı daim qələbələrə aparmağa qadirdir.

Daha sonra Azərbaycan Respublikası Prezident Adminstrasiyası İctimai-siyasi şöbəsinin əməkdaşı Rasim Mirzəyev, general-leytenant İnayət Xəlilov, RVT Rəyasət Heyətinin üzvləri Viktor Timoşenko, Bəhram Zahidov və Musa Bağırov, keçmiş nazirlər Kamil Akimov və Kamil Seyidov, Aydın Əliyev və başqaları çıxış etmiş, Ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini yada salmış, onun Azərbaycan dövləti və xalqı qarşısındakı fəaliyyətindən danışmışlar.

Sonda tədbir iştirakçıları görkəmli kinorejissor Vaqif Mustafayevin Heydər Əliyev haqqında çəkdiyi 5-ci televiziya filminin qısa variantına tamaşa etmişlər.

# HEYDƏR ƏLİYEV-95

***XX əsrin sonları Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi və xalqımızın tarixi taleyində müstəsna əhəmiyyətli dövr kimi əbədiləşmişdir. Məlum olduğu kimi bu dövr asan olmamış Azərbaycan üçün tələtümlü illər kimi tarixə yazılmışdır. Azərbaycanın Böyük dövlət xadimi Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkəmizin bütün sahələrində böyük dəyişikliklər, islahatlar dövrü başlanmışdır. Hüquqi dövlət quruculuğunun vüsət alması, yeni ictimai-iqtisadi formasiyaya transformasiya, müasir dövlət təsisatlarının formalaşdırılması gərgin əmək hesabına başa gəlmişdir.***

Bu dövrdə Azərbaycanın qarşısında çox böyük vəzifələr dururdu. Birincisi ölkə daxilində xaos, çaxnaşma və təbəddülatlara son qoyulmalı və sabitliyə nail olmaq lazım gəlirdi, yalnız bundan sonra Azərbaycanın xarici siyasətini qurmaq və ölkəni dünyaya sülhsevər və demokratik dövlət kimi təqdim etmək olardı. Bu zaman ermənilərin mürtəce təbliğatı nəticəsində beynəlxalq aləmdə Azərbaycanın mənfi obrazı formalaşdırılırdı. Təcavüzkar Ermənistan ərazilərimizi işğal etməsinə baxmayaraq özünü zərərçəkən tərəf kimi təqdim etməsi vəziyyəti daha da çətinləşdirmişdi. Belə bir zamanda Heydər Əliyev dövlət başçısı seçildi.

Heydər Əliyev Azərbaycana uzun müddət rəhbərlik etmiş bir şəxs kimi ölkənin daxili və xarici siyasətinin prioritet məsələlərini dərindən bilirdi. Lakin zaman o zaman deyildi. Tarixi yenidən yazmaq lazım gələcəkdi və o bu tarixi yazdı da...

İndi müasir demokratik inkişaf yoluna çıxarılmış Azərbaycan Heydər Əliyev əmanəti olaraq göz bəbəyi kimi qorunmalıdır. Ümummilli Liderimiz Azərbaycanın dövlət müstəqilliyini xalqımızın milli sərvəti kimi qiymətləndirir və onu qorumağı tövsiyə edirdi.

Daxili siyasətdə kütlə idarəçiliyi psixologiyasından müdrik dövlət idarəçiliyinə keçilməsini qeyd etməmək olmaz. Azərbaycanda belə bir fikir formalaşmışdı ki, hakimiyyətə gəlmək üçün yalnız xaos və çaxnaşma lazımdır. Heydər Əliyev demokratik seçki ənənəsinin başlanğıcını qoymaqla vəziyyəti tamamilə dəyişdi.

Xarici siyasətdə dünya birliyi ilə əlaqələrin möhkəmləndirilməsi, Azərbaycanın informasiya blokadasından çıxarılması və dünya ictimaiyyətində haqqımızda yaradılmış mənfi fikirləri dağıtmaq lazım gəlirdi. Azərbaycanın belə bir zamanda dostu çox az, düşmənləri isə kifayət qədər çox idi.

Heydər Əliyev dünyagörüşündə diplomatiyanın və xarici siyasətin gücü daxili siyasətin uğuru ilə düz mütənasibdir. Yeni dünya düzənində Azərbaycanın yerinin və rolunun



müəyyənləşdirilməsi də məhz daxili və xarici siyasətin uğurundan asılı olacaq idi. Təbii sərvətlərdən və geostrateji vəziyyətdən yararlanma, onu milli maraqların tələbləri ilə tarazlaşdırmaq siyasi proqnozlaşdırma bacarığına malik Heydər Əliyev şəxsiyyətinə nəsib ola bilmişdir.

Siyasətin zor və gücə deyil, qanunların aliliyinə, sosial ədalət prinsiplərinə və hüquqa söykənməsi, beynəlxalq münasibətlərdə sülhə və humanist dəyərlərə, ziddiyyətlərin həll olunmasında diplomatik vasitələrə üstünlük verilməsi Heydər Əliyev siyasətini şərtləndirən xüsusiyyətlərdəndir.

Azərbaycan diasporunun əsasını qoyan H. Əliyev eyni zamanda dünya miqyasında ümumən türklərin diaspora fəaliyyətinin birliyi məsələsini də gündəliyə gətirmişdir. Milli -mənəvi birliyə, siyasi mütəşəkkilliyə və mədəni - mənəvi beynəlxalq həmrəyliyə nail olmadan böyük mədəni xalq, tərəqqi etmiş millət olduğunu təsdiq etmək mümkün deyildir. Qloballaşma prosesini nəzərə alaraq Azərbaycanın dünyaya inteqrasiya etməsinin də həyata keçirilməsi Ümummilli Liderimizin uzaqgörən siyasətinə daxil idi. Belə ki, iqtisadi və siyasi mənafelərin beynəlxalq miqyasda uzlaşdırılması Azərbaycana olan münasibəti yaxşılığa doğru dəyişməyə başladı. Ölkəmiz nəhəng beynəlxalq təşkilatlarda layiqincə təmsil olundu.

Xalqımızın dövlətçilik şüurunun günbəgün möhkəmlənməsi, onun intellektinin və siyasi mütəşəkkiliyinin yüksəlişi iqtisadi qüdrətlənmə fonunda milli maraqların təmin olunmasına yönəlmişdir. Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş milli strategiya və siyasi kurs öz optimallığını təsdiq edərək Respublika Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun təbirincə desək "Müasir Azərbaycanın bütün uğurları Heydər Əliyevin adı ilə bağlıdır, xalqa, millətə xidmət etmək, ölkəmizi gücləndirmək, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək Heydər Əliyev siyasətinin əsas istiqamətləridir. Biz bu siyasətə sadiqik".

Xalqımızın milli-mənəvi gücünü təcəssüm etdirən Heydər Əliyevə görə Azərbaycan qərb yönlü müasir milli-demokratik dövlət quruculuğu yolu ilə gedəcəkdi. Eyni zamanda Türk və İslam dünyası ilə münasibətlərin optimal həddə gətirilməsi siyasəti qurulmalı idi.

Türkçülük, Müasirlik, İslamçılıq prinsiplərindən çıxış edərək Heydər Əliyev istər daxili siyasətdə istərsə də xarici siyasətdə bu prinsipləri daha da inkişaf etdirərək müasir Azərbaycan dövlətinin qurulması və inkişaf etdirilməsi yollarını müəyyənləşdirdi.

Türk dünyası ölkələri ilə əməkdaşlığın yüksək səviyyəyə çatdırılmasındakı xidmətləri ilə eyni zamanda çoxşaxəli fəal xarici siyasətdə bütün istiqamətlərdə Azərbaycan yenidən quruldu və tanındı.

2007-ci il noyabr ayının 17-də Bakıda keçirilən Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında yekun hesabatın qəbul olunması və konkret qərarların gündəliyə gətirilməsi də Heydər Əliyev siyasətinin məntiqi davamı və böyük nailiyyəti kimi xarakterizə oluna bilər. Necə ola bilər ki, sayı, ərazisi və qabiliyyətləri dəfələrlə türk millətindən az olan ermənilər bu böyük dünyaya meydan oxuyurlar. Məlumdur ki, milli mütəşəkkilliyin zəifliyi və türk xalqları arasında inteqrativ əlaqələrin güclü olmaması, qeyri-millətlərə qarşı ifrat humanizm düşmənlər üçün boşluq və münbit şərait yaratmışdır. Məhz bu səbəbdən reallıqları dərindən dərk edərək Heydər Əliyev "Öz hüquqlarını bilən ən kiçik xalq belə böyük xalq qədər güclü ola bilər" fikrini bəyan etmişdir.

Böyük bir mövzudan qısaca bəhs etməklə tərəfimizdən Ümummilli lider Heydər Əliyevin Azərbaycan və Böyük Türk dünyası haqqındakı ideya və düşüncələrinin uzaqgörən, yaxın və uzaq hədəflərə köklənmiş düşüncə olduğuna diqqət yönəltməkdir. Eləcə də Azərbaycanın tarixini bu günümüzlə qovuşduran, vətənimizin parlaq gələcəyini müəyyən edən qüdrət və əbədiyyət yolu Ulu öndərimizin siyasi kursu ilə sıx bağlı olduğu şübhəsizdir.

*Şəhla Qarayeva*
*"Azərbaycan Veteranı" qəzetinin məsul katibi*

# Respublikamızda veteranlara xüsusi diqqət və qayğı göstərilir

Respublikamıza veteranlara diqqət və qayğının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün onun layiqli varisi olan cənab Prezident İlham Əliyevin siyasi kursu ilə uğurla davam etdirilir. Azərbaycan Respublikasının azadlığı, süverenliyi və ərazi bütövlüyü uğrunda həlak olanların - şəhidlərin xatirəsini əbədiləşdirmək, şəhid ailələrinə, Vətənimizi müdafiə edərkən əlil olan, xəsarət alan şəxslər, İkinci dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhə veteranlarına qayğı göstərmək dövlətimizin daim diqqət mərkəzindədir. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "əlillərin sosial müdafiəsi haqqında" qanunlar, Azərbaycan Respublikasının erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" Prezidentin fərmanı və bir sıra başqa, qanunlar, fərmanlar, qərarlar bu qayğının parlaq ifadəsidir.

Prezident cənab İlham Əliyev tərəfindən imzalanan digər sənədlə 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilir.

Mütəmadi olaraq bütün müharibə veteranlarına, şəhid ailələrinə hər il Prezidentimiz tərəfindən maddi yardım göstərilir. 09 mart 2018-ci il tarixdə Azərbaycan Respublikasında müharibə veteranlarına dövlət qayğısını artırmaq məqsədilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həyata keçirilməsinin təmin olunması üçün 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Təşkilata 300 000 (üç yüz) manat ayrılmışdır.

Həmçinin 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə İkinci Dünya müharibəsi iştirakçılarına 1000,0 (min) manat məbləğində, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500,0 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verildi.

Qeyd edək ki, Əmək və Əhalinin Sosial müdafiəsi nazirliyindən verilən məlumata görə respublikamızda hal-hazırda 461 İkinci Dünya müharibəsi iştirakçı, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin 6670 dul arvadları, 2607 nəfər arxa cəbhə veteranı var.

Respublika Veteranlar Təşkilatı veteranların problemlərinin həllində, eləcə də, Respublikamızda gənclərin hərbi-vətənpərvərlik potensialının artırılması istiqamətində fəaliyyət göstərir. Bu istiqamətdə dövlət qurumları və bir sıra təşkilatlarla yaxından əməkdaşlıq edir. Təşkilatın qarşısına qoyduğu vacib məsələlərdən biri kimi gənclərin düzgün tərbiyə edilməsində veteranların bilik və bacarıqlarından istifadə edilməsidir. Bu yöndə Təşkilat təhsil ocaqlarında, hərbi hissələrdə müntəzəm olaraq tədbir və layihələr həyata keçirir. Xüsusən orta və ali məktəblər, akademiyalarda gənclər və veteranların görüşləri təşkil edilir. Veteranların həyat yolu, xidmətləri gənclərə tanıdılır. Onlara əsl vətənpərvər olmağın sirləri aşılanır.

Respublika veteranlar Təşkilatı dövlət orqanları, bilavasitə Respublika Əmək və Əhalinin Sosial müdafiəsi nazirliyi, Səhiyyə nazirliyi, Müdafiə nazirliyi, rayon icra hakimiyyətləri ilə birlikdə veteranların sosial və hüquqi müdafiəsinin təmin edilməsi, fiziki və ruhi sağlamlıq, fəal uzun ömürlülük üçün şərait yaradılması, yaşayış sahəsi ilə təmin edilməsi, müxtəlif növ sosial xidmətlərin göstərilməsi və digər məsələlərdə planlı tədbirlər həyata keçirir.

Respublika Veteranlar Təşkilatı xarici dövlətlərin veteranlar təşkilatları və bu kimi qurumları ilə qarşılıqlı əlaqələr yaratmışdır. Həyata keçirilən tədbirlər əlaqələrin daha da dərinləşəcəyinə, dünyada sülhün və ədalətin təmin edilməsinə xidmət edir.

Respublika Veteranlar Təşkilatının kollektivi hər bir üzvü üzərlərinə düşən işin məsuliyyətini dərindən dərk edir. Bütün bunlar gələcəkdə də Respublika rəhbərliyi tərəfindən Təşkilata göstərilən etimadı doğruldacağımızdan xəbər verir.

*Telman Babayev ,*
*Respublika Veteranlar Təşkilatının Veteranların Sosial Müdafiəsi şöbəsinin müdiri*

# Adı iftixarla çəkilən hərb tariximizin canlı əfsanəsi



***Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasında, inkişafında və milli hərbçi kadrların hazırlanmasında xüsusi xidmətləri olan, "Şöhrət" və "Azərbaycan Bayrağı" ordenləri ilə təltif edilmiş, Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov keçdiyi əzəmətli xidmət yolu ilə hərb tarixinə adını qızıl hərflərlə yazdırmışdır. Onun şərəfli xidməti II dünya müharibəsi dövründən başlamış leytenantdan general-polkovnik ali hərbi rütbəsinə qədər yüksəlmişdir.***

***General - polkovnik Tofiq Ağahüseynov demək olar ki, bütün ömrünü hərbiyə həsr etmişdir. Bu heç də onun üçün təsadüfi bir seçim deyildi. II dünya müharibəsində yaşadıqları və gördüyü dəhşətlər bir insan kimi Tofiq Ağahüseynovu vətənin və sülhün keşikçisi olmasına gətirib çıxarmışdır.***

Tofiq Yaqub oğlu Ağahüseynov 1923-cü il fevral ayının 1-də Şəkidə anadan olmuş, yeddi yaşında ailəsi ilə birgə Bakıya köçmüşdür. Orta məktəbi Bakıda bitirdikdən sonra 1942-ci ilin sentyabrında o, Bakı Zenit Artilleriya Məktəbinə daxil olur. Yüksək ümumtəhsil hazırlığı sayəsində T.Ağahüseynov hərbi məktəbdə yaxşı oxuyurdu. Zenitçilərin ixtiyarında olan texnika mürəkkəb idi və mexanikanın əsasları sahəsində dərin bilik tələb edirdi, Ağahüseynov da bu fənnləri yaxşı bilirdi. O, Bakı Zenit Artilleriya Məktəbində oxuduğu zamanlarda cəbhədə vəziyyət daha da mürəkkəbləşirdi.

Tofiq Ağahüseynov öz xatirələrində qeyd edir: "Almanlar Moskvaya yaxınlaşırdı. Çoxları fikirləşirdi ki, Moskvanın süqutuna çox qalmayıb. Mənim bu işlərə münasibətim isə birmənalı idi. Biz gənclər belə hesab edirdik ki, almanlar hətta Moskvanı alsalar belə müqavimət davam edəcək. Hamı gözləyirdi ki, təhsil yarımçıq kəsiləcək və biz cəbhəyə yola düşəcəyik. 1942-ci ildən yeni sınaqlar başladı. Almanlar cənubdan hücuma keçib cəbhə xəttini yardılar, bütün Şimali Qafqazı işğal edib Mozdoka yaxınlaşdılar. Bakıda vəziyyət gərginləşirdi. Rəsmi təbliğat xəbərdarlıq edirdi ki, hücumun məqsədi Bakının neft rayonlarını işğal etməkdir. Şəhərin ətrafında səngərlər qurmağa başlanıldı, məktəbimizin kursantları da bu işə cəlb olundu, biz artilleriya üçün səngərlər qazmağa başladıq.Səhərdən axşama qədər işləyirdik. Qısa müddət ərzində Bakı ətrafında güclü müdafiə səddi quruldu. 20 minə yaxın adam bu səddin tikintisində göstərdiyi əmək qəhrəmanlığına görə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı və "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olunmuşdur. Bu arada məlum oldu ki, almanların əsas zərbəsi Stalinqrada istiqamətlənib. Mozdok altında vəziyyət sabitləşdi. Biz yenidən dərslərə başladıq."

Bir il yarımdan sonra Tofiq Ağahüseynov leytenant rütbəsi alır və bu rütbə ilə Bakıdan ayrılmalı olur.

1942-ci ildə Şimalda başlayan döyüşlərin ilk günlərindən döyüşçülər öz komandirinə inanırdılar. Əsgərlər deyirdilər ki, belə komandirlə heç şeytan da qorxulu deyil. Batareya komandiri olan T. Ağahüseynov hər çətin vəziyyətdən qalib çıxırdı. Komandirə bəslənən inam isə əsgərlərin qüvvəsini artırır, onların mənəvi ruhunu yüksəldirdi.

1944-cü ildə Tofiq Ağahüseynov 1-ci Belarus cəbhəsində vzvod-komandiri, əlahiddə zenit artilleriya diviziyası qərargah rəisinin köməkçisi olmuş, Visla-Oder və Berlin əməliyyatlarında iştirak etmişdir.

Onun cəbhə tərcümeyi-halından bir epizodu xatırlamaq yerinə düşər: "Düşmən yunkerslərinin qara nöqtələri yaxınlaşırdı. T.Ağahüseynov atəşə hazırlıq üçün bütün tədbirləri gördü, "atəş" komandası verdi və onu cəbhə həyatında ilk dəfə olaraq təsvirə düşmüş qağayıları pərə-pərən salan yaylım atəşi açıldı. Zenitçilər mərmilərin partlamasını, düşmən təyyarələrinin ətrafında ağ-qara ləkələrin yaranmasını həyəcanla izləyirdilər. Düşmən aviasiyasının hücumu dəf edildikdən sonra batareya komandiri hava həyəcanının dayandırılması barədə komanda verdi. 1943-cü ilin sakit, mülayim noyabr səhəri idi. Zenit batareyaları üzrə növbətçi günorta məruzə etdi ki, aviasiya mühərriklərinin səsi eşidilir. Az sonra komanda məntəqəsindən xəbər verdilər ki, 36 düşmən təyyarəsi batareyaya doğru istiqamət götürüb.

T.Ağahüseynov hava həyəcanı elan etdi və o, aşağıdan uçan faşist bombardımançılarını ilk dəfə o vaxt gördü. İrəlidəki təyyarədən havaya ağ raket buraxıldı və o dərhal surətlə aşağı şığıdı. T. Ağahüseynov nə baş verdiyini əvvəl başa düşmədi. Yeri sarsıdan ilk partlayış onu elə vahimələndirdi ki, özünü çətinliklə ələ aldı. Hücum bir saat davam etdi və bütün bu müddət ərzində Ağahüseynov öz döyüş postunda oldu, dəqiq komandalar verdi. Düşmən 150-ə qədər mərmi atıb atəşi dayandırdı. Xoşbəxtlikdən itki və ciddi zədələnmə olmadı".

İnsanın uyğunlaşa bilmədiyi şərait yoxdur. Ağahüseynovun döyüşçüləri də artilleriya atəşlərinə tez alışdılar. Düşmən onları demək olar ki, hər gün eyni vaxtda atəşə tuturdu. Müharibə davam edirdi. 1944-cü ilin baharı gəldi. Döyüşçülər tez-tez müharibədən sonra yaşayacaqları həyat barədə danışmağa başlamışdılar. Lakin heç kim "əgər yaşasaq" sözlərini dilinə gətirmirdi.

Tarixdə həyata keçirilən Visla-Oder əməliyyatı Böyük Vətən Müharibəsi və İkinci Dünya müharibəsinin ən mühüm səhifələrindən biridir. Bu əməliyyatda əsas məqsəd-alman-faşist qruplaşmalarını darmadağın etmək, Polşanın azad edilməsini başa çatdırmaq, Berlinə həlledici zərbə endirilməsi üçün münasib şərait yaradılmasını təmin etmək idi. Visla-Oder və Berlin əməliyyatlarının iştirakçısı kimi Tofiq Ağahüseynov o dövrü xatırlayaraq deyir: "1945-ci ilin baharında Visla-order əməliyyatı başladı. Bu zaman bizim divizion cəbhə xəttinin arxasında idi. Qoşunlarımız Oderə çatıb əməliyyat meydanı tutduqdan sonra Berlin əməliyyatına hazırlıq başlandı. Divizionumuz Oder çayı rayonunda yerləşdiriləcəkdi. Yeni rayona kəşfiyyat qrupu göndərilməli idi. Bizə o vaxtlar "polutorka" adlanan yük maşını ayırmışdılar. Səfərə hazırlaşdığımız müddətdə qrupun heyəti ixtisar edildi cəmi 2 nəfər qaldıq: sürücü və mən... Oder çayına aparan bütün yollar qoşunlarla dolu idi. Almanlar bərələrə və qoşunlara mütəmadi olaraq zərbələr endirirdilər. Biz özümüz də bir neçə dəfə bombardımana düşdük. Bütün bunlar mənim digər gördüklərimdən tamam fərqli idi. Bizim divizionla bağlı heç bir göstəriş verilməmişdir. Birtəhər korpusun qərargahı ilə əlaqə yaratmaq mümkün oldu. Mənə dedilər ki, tapşırıq dəyişib və mən Oderin sağ sahilində Frankfur-Oder şəhərinə getməliyəm. Divizionumuz buradakı Replin stansiyasına boşaltmalı idi. Mövqelərimiz isə Frankfur-Oder şəhərinin əks tərəfində yerləşən Kunesdorf şəhərində nəzərdə tutulmuşdur. Mən Replin stansiyasına gələndə divizionumuz öz yükünü boşaldırdı. Bu vaxt stansiya artilleriya atəşinə tutulmağa başladı. Vaqonlar od aldı, bütün şəxsi heyət alovla mübarizəyə başladı. Mən və sürücü də bu işə qoşulduq. Axşama yaxın yükləri boşaldıb qurtardıq və batareyalar öz mövqelərinə doğru hərəkət etməyə başladılar. Artıq Berlin əməliyyatı başlamışdır və kəşfiyyat üçün getmək lazım idi. Mən öz maşınımla yola düşdüm və mayın 2-si Berlinə çatdım. Korpusun nümayəndəsini tapdım, o dedi ki, divizion yerində qalır və mən geri qayıtmalıyam. Bu zaman artıq Reyxstaq alınmışdır və mən ona tamaşa etmək istəyimizin qarşısını ala bilmədim. Hətta mən onun sütunlarının birinin üzərinə öz familyamı da yazdım. Sonra geri - Kunesdorfa qayıtdıq. Mayın 8-də isə hamının həsrətlə gözlədiyi Qələbə qazanıldı.- Müharibə mənim üçün belə qazanıldı. İnana bilmirdim ki, od-alovlardan keçərək sağ qaldım. Müharibə dəhşətli şeydir, bunu etiraf etmək lazımdır. Lakin insan bu dəhşətə, vahiməyə, qorxu hisslərinə qalib gəlməyi bacarsın."

Beləliklə müharibə başa çatdı, müharibə bitdikdən sonra Tofiq Ağahüseynovun qulluq etdiyi diviziya 1946-cı ilin oktyabrına qədər Almaniyada qalır.

Onun sağlamlığı, fiziki hazırlığı, ətrafındakılara münasibəti, cəsarəti, dönməzliyi, xüsusilə də daim biliyini artırması böyük hərbçi olacağına yol açan faktorlardan idi. 1949-cu ildə Dzerjinski adına Hərbi Akademiyaya, bunun ardınca Hərbi Artilleriya Akademiyasına daxil olur.

Tofiq Ağahüseynov 1960-1964-cü illərdə Hövsanda yerləşən Hava Hücumundan Müdafiə polkuna komandirlik edir, 1964-cü ilin sonlarında Volqoqrada göndərilir və diviziya komandiri kimi orada çalışır. 1968-ci ildə general-mayor rütbəsi alır. 1969-cu ildən Rostovda korpus komandiri təyin edilir.

1972-ci ildə isə general-leytenant rütbəsi alır və 1975-ci ildə Bakı Dairəsi Hava Hücumundan Müdafiə Komandanının birinci müavini təyin edilir. 1980-ci ildə general-polkovnik rütbəsini alan Tofiq Ağahüseynova həm də Bakı Dairəsi Hava Hücumundan Müdafiə Komandanı vəzifəsi həvalə edilir.

O, SSRİ Silahlı Qüvvələrində general-polkovnik rütbəsi alan ilk azərbaycanlıdır. "Bəzən məndən soruşurlar ki, bütün bunların fonunda mən general-polkovnik rütbəsinə necə çatdım? Mən orduda 46 il xidmət etmişəm və hesab edirəm ki, mənim sadəcə bəxtim gətirdi ki, mənim həyat yolumda qarşıma beynəlmiləlçi insanlar çıxdılar. Əlbəttə, mənim general kimi formalaşmağımda Heydər Əliyev aparıcı rol oynayıb. Mən 30 ildən çoxdur ki, onu tanıyırdım. O, həmişə mənim taleyimlə maraqlanır, hər cür kömək edirdi və mən bunun üçün ona son dərəcə minnətdaram."

Tofiq Ağahüseynova 1982-ci ildə daha böyük bir vəzifə həvalə etdilər. O,



Varşava Müqaviləsi dövlətlərinin birləşmiş silahlı qüvvələri baş komandanlığının Çexoslovakiyadakı nümayəndəsi təyin olunur.

Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci il 17 aprel tarixli sərəncamı ilə Tofiq Ağahüseynov prezidentin hərbi məsələlər üzrə köməkçisi təyin olunur. Eyni zamanda, general-polkovnik rütbəsində Azərbaycan Milli Ordusu sıralarına bərpa edilir. Bu zaman onun 74 yaşı var idi.

Müharibə illərində və sonralar dövlətin ali mükafatlarına, orden və medallara layiq görülüb. Qırmızı Bayraq, Oktyabr İnqilabı, Birinci Dərəcəli Vətən Müharibəsi, Qırmızı Ulduz ordenləri onun yaxasını bəzəyib. O, üç çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 fevral 2008-ci il tarixli Sərəncamı ilə Azərbaycanda hərbi quruculuq sahəsində xidmətlərinə görə "Şöhrət" ordeni ilə, 17 yanvar 2013-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Silahlı Qüwələrinin formalaşdırılmasında və hərbçi kadrların hazırlanmasında xüsusi xidmətlərinə görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

General-polkovnik Tofiq Ağahüseynov 12 sentyabr 2017-ci il tarixindən Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri vəzifəsində çalışır.

2018-ci ildə isə general Tofiq Ağahüseynov cənab Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

AZƏRBAYCAN VETERANI
1941-1945

09-10 (104-105) 07 may 2018-ci il
XÜSUSİ BURAXILIŞ

# HƏRB TARİXİMİZƏ QIZIL HƏRFLƏRLƏ YAZILMIŞ QƏHRƏMANLIQ TƏCƏSSÜMÜ-MİLLİ DİVİZİYALARIMIZ

İkinci dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq komandanlığın 1941-ci ilin 18 oktyabr tarixli əmrinə əsasən azərbaycanlılardan ibarət 77-ci dağ-atıcı diviziyası, 223-cü milli atıcı, 396-cı milli atıcı, 402-ci və 416-cı milli atıcı diviziyaları yaradıldı və onlar Zaqafqaziya hərbi dairəsində yerləşdirilmiş 44-cü, 45-ci və 46-cı orduların tərkibinə daxil edildilər.

Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci və s. milli diviziyalar Simferopolun , Odessanın və digər şəhərlərin, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad olunmasında fəal iştirak etmiş, 416-cı diviziya Qafqazdan Berlinə qədər böyük döyüş yolu keçmiş, Berlinin süquta yetirilməsində xüsusi fəallıq göstərmişdir. Polşa və Çexoslovakiyanın faşistlərdən azad edilməsi uğrundakı döyüşlərdə göstərdikləri qəhrəmanlıqlara görə Ziya Bünyadov və digər 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.



*77-ci milli atıcı diviziya* müharibəyə 1941-ci ilin dekabrında 51-ci ordunun tərkibində Kerç-Feodosiya desant əməliyyatı ilə başladı. Diviziya Kerç, Taman, Novorossiysk, Mozdok, Mineralni vodı uğrunda gedən döyüşlərdə fərqlənmiş, Simferopolun azad edilməsində göstərdiyi qəhramanlığa görə Suvorov ordeni ilə təltif edilmişdi. Sevastopolun azad edilməsi uğrunda Sapun-qaradan başlanan döyüşlər 10 gün davam etdi, qələbə bayrağını 1943 -cü ilin 7 mayında serjant Əbdüləziz Qurbanov sancdı. Simferopol şəhəri düşməndən azad edildikdən sonra döyüşlərdə ən fəal iştirak edən 77-ci diviziyaya Simferopol diviziyası" fəxri adı verildi. Bütövlükdə Krımın azad edilməsinə görə diviziyanın 3140 əsgər və zabiti orden, medallara layiq görüldülər. Həmin əməliyyatlarda 77-ci milli diviziyanın rabitə batalyonunun komandiri kapitan İsmayıl İbrahimov xüsusilə fərqləndi. 77-ci diviziya 1944-cü ilin iyul ayından başlayaraq Pribaltikada və Rusiyada gedən döyüşlərdə fəal iştirak etdiyinə görə, onun yüzlərlə əsgər və zabiti orden, medallarla təltif edildi, 8 döyüşçü Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Ümumilikdə 77-ci Simferopol dağatıcı Azərbaycan milli diviziyası döyüş əməliyyatlarına Krımdan başlamış və 11000 kilometrə yaxın məsafəni qət edərək, müharibəni Berlində qurtarmışdı. Diviziyanın döyüş yollarında Heybət Heybətov, Tərlan Əliyarbəyov, Mahmud Əbilov, Məmmədbağır Bağırov, Hacıbaba Zeynalov, Hüseyn Məmmədov kimi generallar yetişmiş və onların hər biri böyük sərkərdəlik məharəti göstərmişlər.



*396-cı atıcı diviziya* 1941-ci ilin avqustunda İranda 44-cü ordunun tərkibində olmuşdur. Həmin ilin sonunda diviziya respublikanın Quba bölgəsinə gətirilmiş və Şimali Qafqaza göndərilmək üçün hazırlanırdı. Diviziyanın ilk komandiri Q.Korçakov, komandir müavini polkovnik Əsədullayev: komissarı polkovnik Xavər Vəliyev olmuşdur. Diviziyanın şəxsi heyətinin əksəriyyəti azərbaycanlılardan ibarət idi. 1941-ci ilin son günlərində diviziya Krım yarımadasına desant yolu ilə göndərildi və 51-ci Ordunun tərkibinə daxil edildi. 396-cı diviziyanın tərkibində 803-cü, 816-cı, 819-cu atıcı alayları və 957-ci artilleriya alayı (komandir Musa Heybətov) olmuşdur. Digər alayların komandirləri isə polkovnik Abdullayev və polkovnik Əsədullayev idi.



1942-ci ilin may döyüşləri ərəfəsində Krımda 44-cü, 47-ci və 51-ci Sovet Orduları yerləşdirilmişdi. Mayın 7-də faşist ordusunun geniş miqyaslı hücumları nəticəsində 44-cü Sovet Ordusu hissələri böyük itki ilə geri çəkilməyə məcbur oldular. Bu döyüşdə 396-cı diviziya böyük itki verdi. Gərgin döyüşlərdə 396-cı milli diviziyanın alay və batalyon komandirləri və komissarlarından X.Vəliyev, Y.İsmayılov, Əmirulla Dadaşov (həlak olmuşdur), Ə.Hüseynov, A.Abbasov, K.Ağayev, N.Aslanov, Mehdi Muxtarov, T.Axundov, İ.Əsgərov, Q.Süleymanov döyüşlərdə xüsusilə fərqlənmişdilər. Həmin döyüşdən sonra Sovet hərbi hissələri Krımdan Taman yarımadasına köçürüldülər. 396-cı diviziyanın şəxsi heyəti isə Armavirdən keçərək Tiflisə, oradan da Qubaya (Azərbaycana) göndərilərək, tərtib edilən yeni (223-cü) diviziyanın tərkibinə qatıldı.

*223-cü milli atıcı diviziyanın* döyüş yolu 1942 -ci ilin yayından Şimali Qafqazdan başlayaraq, Ukrayna və Moldaviyadan, Bolqarıstan, Yuqoslaviya və Macarıstandan Avstriyanın paytaxtı Vyanaya qədər uzanmışdı. Diviziya 1945 -ci il mayın 9-da Çexoslovakiyaya daxil olmuş və mayın 12-də Çeski Budlvitse şəhərində Amerika ordusunun hərbi hissələri ilə görüşmüşdü. Diviziyanın əsgər və zabitlərindən 3483 nəfər orden, medallarla təltif edilmişdi. 1942-ci il fevral ayından 1943-cü ilin iyun ayına qədər Heybət Heybətov diviziyanın komandiri olmuşdu. Onun komandanlığı altında diviziya Mozdokdan Millerova şəhərinə qədər döyüş yolu keçmişdi. General Heybət Heybətov müharibə illərində general rütbəsi almış Həzi Aslanov və Yaqub Quliyev ilə yanaşı üçüncü azərbaycanlı generalıdır. Müharibə illərində həmin diviziyada komandan olmuş 6 nəfərin arasında general Heybət Heybətovun 17 ay komandirlik fəaliyyəti daha zəngindir. Diviziyanın bütün alayları: 1037-ci alay Suvorov ordeninə, 1039-cu alay Kutuzov ordeninə, 1041-ci alay Suvorov və Kutuzov ordenlərinə, 818-ci alay Boqdan Xmelintski ordeninə layiq görülmüşdü. Diviziyanın döyüşçülərindən 2 nəfərinə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.



*402-ci milli atıcı diviziya* Tərkibi 90% azərbaycanlılardan ibarət olan 402-ci milli atıcı diviziya 44-cü ordu tərkibində Şimali Qafqazda Terek çayının sağ sahilində Qroznı - Mozdok istiqamətində ağır döyüşlərdə iştirak etmiş və bu döyüşlərdə fərqlənmişdi. Həmin döyüşlərdə 833-cü alayın komandiri mayor Akim Abbasov və 840-cı alayın döyüşçüləri qəhrəmanlıq nümunələri göstərmişdilər. 1944-cü ilin əvvəlində 402-ci milli diviziyanın sıravi heyətinin 75%-i, komanda heyətinin 50%-i azərbaycanlılardan ibarət idi. Komanda heyətinin milli tərkibini gücləndirmək məqsədilə diviziyaya respublikadan azərbaycanlı hazırlıqlı və təcrübəli komandirlər heyəti göndərildi. Diviziyada siyasi tərbiyə işlərinə respublikadan 300 nəfərdən çox partiya işçisi göndərilmişdi. Görkəmli yaradıcı ziyalılardan Üzeyir Hacıbəyov, Səməd Vurğun, Rəsul Rza, Bülbül, Niyazi Hacıbəyov, Mustafa Topçubaşov, Heydər Hüseynov və digərləri dəfələrlə həmin diviziyada olmuşlar.

*416-cı milli atıcı diviziya* 416-cı milli atıcı diviziyanın tərkibinin, xüsusi ilə də komanda heyətinin 92%-i azərbaycanlılardan ibarət idi. 1942-ci ilin payızında diviziya Şimali Qafqazda 44-cü ordu, az sonra 58-ci ordu tərkibində Mozdok istiqamətində döyüşlərə başladı. Taqanroq şəhərinin azad edilməsində fəal iştirakına görə, "Taqanroq diviziyası" adına layiq görüldü. 1943-cü ilin iyulundan sonra diviziyaya general mayor Heybət Heybətov komandanlıq etmişdir. Azərbaycan hökumətinin ardıcıl köməyi nəticəsində diviziya müharibənin sonuna qədər öz milli tərkibini saxlaya bildi. Diviziyanın 1368-ci atıcı alayı Qırmızı Bayraq ordeni, 1054-cü topçu alayı Suvorov ordeni, 444-cü əlahiddə topçu divizionu Boqdan Xmelnitski ordeni, 348-ci əlahiddə sanitar batalyonu Qırmızı Bayraq ordeni ilə təltif edilmişdi. Diviziya Qafqazdan Berlinə kimi 2500 km müzəffər döyüş yolu keçmiş, düşmənin 23 minə yaxın əsgər və zabitini məhv etmiş, 5474 nəfər əsir götürmüş, onların istifadəsində olan çoxlu döyüş texnikasını işlək vəziyyətdə qənimət kimi ələ keçirmişdi. Diviziyanın 14396 nəfər əsgər və komandiri SSRİ-nin orden, medalları ilə təltif edilmişdi. Komandir və əsgərlərin bir çoxuna xarici ölkələrin orden və medalları verilmişdi.



416-cı diviziyanın 1945-ci ildəki döyüş fəaliyyəti xüsusilə diqqətəlayiqdir. Diviziya 1945-ci ilin fevral ayının 3-də Oder çayını keçərək Kyustrin şəhərinin alınmasında iştirak etmişdir. Berlin üzərinə həlledici hücuma başlayan diviziyanın 1373-cü alayı Berlinin müdafiə xəttini yararaq, aprelin 21-də şəhərin kənarına daxil oldu. May ayının 3-də marşal Georgi Jukov başda olmaqla birinci Belorussiya cəbhəsinin hərbi şurasının üzvləri, 416-cı diviziyanın Berlində keçirdiyi döyüş əməliyyatlarının şahidi olmuş, onun xidmətlərinə yüksək qiymət vermişdilər. 416-cı milli diviziya İkinci dünya müharibəsi cəbhələrində 30 ay fasiləsiz döyüşlər aparmış, Bakıdan Praqaya qədər 5000 km yol qət etmiş, 6 Avropa ölkəsindən – Rumıniyadan, Bolqarıstandan, Yuqoslaviyadan, Macarıstandan, Avstriyadan, Çexoslovakiyadan və 50-dən çox böyük və orta çaydan keçərək düşmənin 28 hərbi təyyarəsini, 113 tankını və zirehli maşınını, 549 səhra topunu, 311 minomyotunu, 1152 pulemyotunu, 200 avtomaşınını, 219 parovozunu, 7400 vaqonunu, 70 anbarını məhv etmiş, küllü miqdarda qənimət ələ keçirmişdi. Diviziyada xidmət etmiş zabit və əsgərlərdən 5 nəfərinə Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdir. Diviziyanın özü Qırmızı Bayraq və II dərəcəli Suvorov ordeni ilə təltif edilmişdir, onun qələbələri şərəfinə Taqonroq şəhərinin yaxınlığındakı Sanbek yüksəkliyində xatirə ansamblı yaradılmışdır, Taqonroqda, Kiyevdə, Nikolayev və Odessa şəhərlərində və Moskvada diviziyaya həsr olunmuş şöhrət muzeyləri təşkil edilmişdir.



1941-1945
AZƏRBAYCAN VETERANI

# Azərbaycan faşizm üzərində qələbənin əsas təminatçısıdır

Ümummilli lider Heydər Əliyev demişdir: "İkinci dünya müharibəsi, əvvəlki müharibələrdən fərqli olaraq, süvari və piyadaların deyil, ilk növbədə motorların, tankların, qırıcı və bombardmançı təyyarələrin, digər döyüş maşınlarının müharibəsi olmuşdur. Neft və neft məhsulları olmadan hərbiçilər bu texnikanı hərəkətə gətirib düşmən üzərində qələbəni təmin edə bilməzdilər. Müharibə illərində Azərbaycan neftçiləri bütün çətinliklərə baxmayaraq, silahlı qüvvələri kifayət qədər yanacaqla təmin edə bilmişdilər... O dövrdə Sovet İttifaqında hasil edilən neftin 70 faizindən çoxu respublikamızın payına düşmüşdür".

Zəngin sərvətlərə və əlverişli coğrafi mövqeyə malik olan Azərbaycan İkinci dünya müharibəsində də döyüşən dövlətlərin marağında mühüm yer tuturdu. Almaniya Bakı neftini ələ keçirməklə Şərqə - İran körfəzinə və Hind okeanına hərəkət etmək niyyətində idi. Hitlerin tapşırığı əsasında hətta Bakının sənaye və hərbi əhəmiyyətli obyektlərinin dəqiq xəritəsi də hazırlanmışdı.

Sovet Azərbaycanı isə SSRİ-nin tərkibində olduğuna görə hələ 1939-cu ilin payızında müharibəyə cəlb



olunmuşdu. 1941-ci ilin iyunundan isə alman faşizminə qarşı müharibədə iştirak etmişdir. Azərbaycan "Böyük Vətən müharibəsi" kimi tarixə düşmüş 1941-1945-ci illər müharibəsinə 600 mindən çox oğlan və qız göndərmişdi. Onlardan 40 mini könüllü olaraq cəbhəyə yollanmışdı. 40 nəfər azərbaycanlı Brest qalasının müdafiəsində iştirak etmiş və son nəfəsinədək qala uğrunda döyüşmüşdü. 1941-ci ilin payızında Leninqrad səmasını qoruyarkən Hüseynbala Əliyev misilsiz qəhrəmanlıq göstərmişdi. O, düşmənin 6 təyyarəsindən 2-sini məhv etmiş, ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. 1941-ci ilin dekabrında Novqorod yaxınlığındakı Pustinka kəndi uğrunda döyüşlərdə İsrafil Məmmədov misilsiz igidlik göstərmiş, ilk dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Qafur Məmmədov, İdris Süleymanov da Şimali Qafqaz uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmişlər.

1942-ci ildə Stalinqrad uğrunda döyüşlərdə azərbaycanlılar şücaətlə vuruşmuşlar. Baloğlan Abbasovun snayperlər qrupu, Həzi Aslanovun tank alayı böyük igidlik göstərmişdi. H.Aslanov 1942-ci il dekabrın 22-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. O, ikinci dəfə bu adı Brezina çayını keçərək Presini şəhərini və 508 yaşayış məntəqəsini azad etdiyinə görə almışdı.

Müharibə illərində ordu sıralarına nəinki azərbaycanlı kişilər, hətta qocalar və qadınlar da səfərbər olunmuş, ən çətin döyüşlərdə iştirak edərək qəhrəmanlıq göstərmişlər. Təyyarəçi Züleyxa Seyidməmmədova, snayper Ziba Qəniyeva, gəmi kapitanı Şövkət Səlimova və başqa qadınların şücaətləri dillər əzbəri olmuş, tarixə düşmüşdür. Əsir düşən həmyerlilərimiz isə partizan dəstələri tərkibində vuruşaraq faşistlərə qan uddurmuşlar.

Bu barədə ümummilli lider Heydər Əliyev demişdir: "Faşizm üzərində qələbənin qazanılmasında Azərbaycan xalqı da öz sanballı töhfəsini vermişdir. Rusiya, Ukrayna, Moldova və Belarusun, Baltikyanı respublikaların, Şərqi Avropa ölkələrinin hitlerçilərdən azad edilməsində, Qərbi Avropada genişlənən müqavimət hərəkatının uğur qazanmasında həmyerlilərimiz mühüm rol oynamışlar". Azərbaycanlılar partizan və müqavimət hərəkatında fəallıq göstərərək Krımda, Ukraynada, Belarusiyada, Polşada, Çexoslovakiyada, Macarıstanda, Yuqoslaviyada və İtaliyada partizan dəstələri sıralarında, Fransa antifaşist müqavimət hərəkatında igidliklə vuruşmuşlar. Ukraynada 400 azərbaycanlı partizan dəstəsi təşkil etmiş, 3 mindən çox soydaşımız isə müqavimət hərəkatında iştirak etmişdir. Onlardan Fransanın milli qəhrəmanları olan Əhmədiyyə Cəbrayılovun və Nuru Abdullayevin adları yaddaşlarda qalmışdır. Ə.Cəbrayılov həm də Fransanın 5 ordeninə layiq görülmüşdü. Mehdi Hüseynzadə Yuqoslaviyada əfsanəvi igidlik göstərmişdi. O, 1000 nəfərdən çox zabiti məhv etmiş, 700 nəfər hərbi əsiri azad etmişdi. Ölümündən sonra - 1957-ci ildə ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Azərbaycandan cəbhəyə səfərbər olunan 600 min adamdan yarıdan çoxu həlak olmuş və itkin düşmüş, 123 nəfər isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdı. Müharibə illərində bütün Bakı ölkə neftinin 70-75%-ni, benzinin 85-90%-ni verirdi. 1941-1945-ci illərdə Bakı ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin vermişdi. Bakı döyüşən ordunun cəbbəxanalarından birinə çevrilmişdi. Bakı "Katyuşa" raketi, "Şpakin pulemyotu" istehsal edir, burada "YAK-3" qırıcı təyyarəsi yığılırdı. Ümumən Bakıda 130-dan çox silah və hissələri hazırlanırdı.

Müharibə illərində Azərbaycanın elm xadimləri də müxtəlif problemlərin uğurlu həlli yolunda səylə çalışırdılar.




Məşhur kimyaçı alimlərimizin, o cümlədən Y.H.Məmmədəliyev, V.S.Qutırya, Ə.M.Quliyev, V.H.İsmayılov, V.S.Əliyev, M.A.Qoreliq və başqalarının birgə səyi və əməkdaşlığı nəticəsində ən yüksək oktanlı benzin və sürtkü yağları növləri alınmışdır. Kimyaçı alimlər müharibə illərində 38 növ sürtkü yağı, 9 adda təyarə benzini və 8 növ dizel yağı istehsalını təşkil etmişlər. SSRİ-nin ən məşhur kimyaçı alimləri içərisində layiqli yer tutan Y.Məmmədəliyev 90-dan çox ixtira və kəşfə nail olmuşdu. Onun qələbədə xüsusi rolu təqdirəlayiqdir. O, ən yüksək oktanlı təyyarə benzini, donmayan motor və sürtkü yağları, "Katyuşa" silahı üçün xüsusi mərmilər və başqa qiymətli komponentlər ixtira etmişdi. Həmin ixtiralardan həm müharibədə, həm də dinc quruculuq sahələrində geniş istifadə etmək olurdu. Keçmiş SSRİ-nin sabiq müdafiə naziri, Sovet İttifaqı marşalı, dörd dəfə Sovet İttifaqı Qəhrəmanı K.Y.Jukov öz memuarında yazmışdı: "Bakı cəbhəni lazım olduğu qədər yanacaqla fasiləsiz olaraq təmin edirdi". Rus şairi S.Mixalkov isə bu münasibətlə yazırdı: "Bakı nefti olmasaydı, heç bir tank, heç bir təyyarə yerindən tərpənməzdi, ölkədə istehsal olunan külli miqdarda hərbi texnika dəmir yığnağı olardı və qələbə qazanılmazdı".

Müharibə dövründə respublikamızın sənaye müəssisələri qələbə naminə cəbhəni lazımi məhsullarla aramsız olaraq təmin edirdilər. Azərbaycanın yüngül sənayesi cəbhənin ehtiyacları üçün təxminən 30, yeyinti sənayesi 50, yerli sənayesi isə 200 növə qədər məhsul istehsal edirdi. Müharibə illərində yüngül sənaye müəssisələri cəbhə üçün 1.419 min şinel, 4.227 min komplekt yay paltarı, 3.097 min cüt alt köynəyi, 1.977 min cüt ayaqqabı, 1.417 cüt komplekt pambıq köynək, 1.417 min patron sumkası və s. göndərmişdi. Ümumilikdə, cəbhəyə respub-




likamızda 125 vaqon isti paltar yollanılmışdı. Eyni zamanda, ordu üçün respublikamızdan dava-dərman, tibb preparatları və lazımi başqa dərmanlar da göndərilmişdi. Azərbaycan vətəndaşları 1941-1943-cü illərdə müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 311 milyon manatlıq istiqraz vermişdilər.

Bir sözlə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində Azərbaycan xalqı daha çox itkilərə və hədsiz məhrumiyyətlərə məruz qalmış, düşmən üzərində qələbə qazanılması üçün özünün var qüvvəsini əsirgəməmişdir. Bu müharibədə Azərbaycan xalqı öz layiqli sözünü demişdi.

Azərbaycan xalqının misilsiz xidmətləri, qələbə naminə göstərdiyi fədakarlıq ermənipərəst İttifaq rəhbərliyi tərəfindən qiymətləndirilməmiş, hətta Azərbaycana qarşı ayrı-seçkilik, ikili standart tətbiq olunmuşdu. Bakı müharibə illərində cəbhəyə həm yanacaq verirdi, həm də hərbi texnika istehsal edirdi. Lakin bunun müqabilində Bakıya "qəhrəman şəhər" statusu verilmədi, keçmiş SSRİ-də Moskva, Leninqrad və Kiyevdən sonra iri şəhər olan Bakıya II və III dərəcəli status verildi, Tiflis və Yerevan isə I dərəcəli şəhər kimi ən yüksək dərəcədə təmin edildi. Əksinə, Azərbaycan xalqının qələbənin əldə edilməsində göstərdiyi misilsiz xidmətin qarşısında, başda qəhrəman neftçilərimiz olmaqla, xalqımızı Orta Asiyaya sürgün etmək haqda türkün düşməni olan və riyakarlığı ilə seçilən Mikoyanın canfəşanlığı ilə söz-söhbət gedirdi.

1418 gün davam edən Böyük Vətən müharibəsi sovet xalqının sıx birliyinin və vətənə məhəbbətinin nümayişinə çevrilmişdi. Böyük qələbə, milliyyətindən asılı olmayaraq, xalqların kütləvi qəhrəmanlığının məntiqi nəticəsi idi. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsindən sonra müharibə veteranlarının xidmətləri çox yüksək qiymətləndirilmişdir. Ulu öndər veteranlara dövlət qayğısı göstərmək haqda 1994-cü ildə fərman imzalamışdır. Ulu öndər Heydər Əliyev deyirdi: "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər". Ümummilli lider həm də tövsiyə edirdi ki, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci dünya müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz insanlarımızdır. Onlara qayğı göstərmək bizim dövlətimizin və hər bir namuslu Azərbaycan vətəndaşının borcudur. Ölkəmizdə müharibə veteranlarına göstərilən diqqət və qayğı ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də yüksək səviyyədə davam etdirilir.

AZƏRBAYCAN VETERANI
1941-1945
7
09-10 (104-105) 07 may 2018-ci il
XÜSUSİ BURAXILIŞ

# 9 May Qələbə Günü bəşər tarixinin heç zaman unutmayacağı hadisədir



Sadəddin Məhi oğlu Rəsulov 1923-cü ildə Qəbələ rayonunun Mıxlıqovaq kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Agdaş texnikomuna daxil olmuş, müharibəyə getməmişdən əvvəl bir il rus dili müəllimi kimi fəaliyyət göstərmişdir.

1941-1945-ci illərdə Rusiyanın Orlov vilayətinin Livni şəhərinə aparılmış və orada təlim keçdikdən sonra müharibəyə göndərilmişdir. Latviya, Litva, Orlov, Kursk şəhərlərində olan hərbi əməliyyatlarda iştirak etmişdir. Müharibədə snayperçi olmuş və ayağından yaralanmışdır.

Müharibə ilə bağlı çox xatirələri var. Ona ən pis təsir edən isə müharibənin çox ağır keçdiyindən, hər tərəfdə aclıq hökm sürdüyündən qardaşının müharibə zamanı aclıqdan öldüyüdür.

Gənclərin təhsilə yiyələnməsində və düzgün tərbiyə edilməsində daim fəallıq göstərmişdir. Müharibədən qayıtdıqdan sonra öz pedaqoji fəaliyyətini davam etdirmişdir. Daha sonra isə öz kolleqası ədəbiyyat fənnini tədris edən Rəsulova Güllü ilə ailə həyatı qurmuş və 5 övladları dünyaya gəlmişdir.

May ayında 96 yaşı tamam olacaq. O, böyük həyəcanla may ayını və xüsusilə də Qələbə gününü gözləyir. Sadəddin Rəsulov üçün Qələbə Günü insanlığın qələbəsidir. 9 May Qələbə Günü bütün veteranlar kimi onun da ən sevincli günüdür. Hər kəs Sadəddin Rəsulovu el ağsaqqalı, ziyalı, vətənpərvər insan kimi tanıyır, nəvələri isə onu hər kəsdən daha çox sevir.

# II dünya müharibəsi veteranı Ulduz Kəngərli

*Kəngərlilər nəslinin nümayəndələrindən biri, Böyük Vətən müharibəsi iştirakçısı Ulduz Kəngərli, əmək veteranı, texniki elmlər doktoru, professor, Azərbaycan Respublikası Prezidentinin Fərdi təqaüdçüsüdür.*




Ulduz Kəngərli 1924-cü ildə İrəvan şəhərində anadan olmuş, ilk təhsilini Qərbi Azəbaycanın İrəvan şəhərində almışdır. 1941-ci ildə, Böyük Vətən müharibəsinin başladığı dövrdə, 17 yaşında 9-cu sinifi əla qiymətlərlə bitirmişdir. Daha sonra, hərbi komissarlığa müraciət edərək, onu Leninqrad cəbhəsində vuruşan qardaşı Nurəddin Kəngərlinskinin olduğu hərbi hissəyə göndərilməsini xahiş edir. Lakin 17 yaşı olduğu üçün geri qaytarılır və təhsilini davam etdirmək üçün onu, İrəvanda yeni yaradılmış artilleriya məktəbinə göndərirlər.

Orta səviyyəli artilleriya məktəbini bitirdikdən və 18 yaşı tamam olduqdan sonra, Tbilisidəki mühüm artilleriya zabitlik məktəblərini bitirərək artilleriya zabiti kimi 3-cü Ukrayna cəbhəsində döyüşən, Baş Komandanlığın tabeçiliyindəki, 9-cu qırıcı artilleriya briqadasının tərkibində olan 1172-ci qvardiyaçı, Budapeşt adına alayda əvvəlcə vzvod komandiri, sonralar isə batareya komandirini əvəz edərək, zabit vəzifəsində xidmət etmişdir.

Bir sıra döyüşlərdə fəal iştirak etmiş, Macarıstanda, Balatonda, Sekeşvehervar şəhəri uğrundakı döyüşlərdəki fəaliyyətinə görə Qırmızı Ulduz ordeninə layiq görülmüş, bundan əlavə o, 2-ci dərəcəli Böyük Vətən müharibəsi ordeni və bütün Böyük Vətən müharibəsi yubiley medalları ilə də təltif edilmişdir.

1945-ci il mayın 1 -də, Böyük Vətən müharibəsinin qələbəsi münasibəti ilə, 1172-ci Qvardiyaçı Budapeşt alayının rəhbərliyi bir neçə zabitin, o cümlədən Ulduz Kəgərlini də əla hərbi əməliyyatları, igidlik və döyüşdə cəsarətinə görə, alayın açıq döyüş bayrağı önündə foto şəklinin çəkilməsinə layiq görmüşdür və Ulduz Kəngərlinin anası Bülbül Xanım Kəngərlinskayaya tərif məktubu göndərmişdir.

Ulduz Kəngərli müharibədən sonrakı dövrdə gənc nəslin elmə, biliyə yiyələnməsi üçün əlindən gələni əsirgəməmişdir.

# Müharibənin hər bir anı Mirzə Məmmədovun gözlərində, simasında hiss edilir

Böyük Vətən müharibəsi veteranı Məmmədov Mirzə Məhəmməd oğlu 1923-cü ildə Bərdə şəhərinin Alpout kəndində anadan olmuşdur. İkinci dünya müharibəsi başladıqda müharibənin əvvəlindən axırınadək Mirzə Məmmədov 600 mindən çox həmyerlimiz kimi fəal iştirak etmişdir. Müharibənin ilk günlərində Azərbaycanda 400 mindən çox oğlan və qız faşizmə qarşı vuruşmaq üçün könüllü surətdə cəbhəyə getməkdən ötrü hərbi komissarlıqlara müraciət etdi. Bu zamanlar da digərləri kimi Mirzə Məmmədov da faşizmə qarşı mübarizəyə atılmaq eşqi ilə yanıb-tutuşurdu. O, 1942-ci ildə Bərdə şəhər komissarlığından hərbi xidmətə çağırılmış, ilk əvvəl Astarada xidmət etmiş, daha sonralar isə Çeçenistanda, Ukraynada, Macarıstanda, Polşada, Danimarkada döyüşmüşdür.




Mirzə Məmmədov 18-ci diviziyanın 424-cü alayında xidmət etmişdir. Müharibənin ən ağır illərində azərbaycanlı əsgər və zabitlər od, alov püskürən cəbhələrdə - Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarusiya, Pribaltika Respublikaları uğrunda gedən döyüşlərdə cəsarətlə vuruşmuş, faşist ordu hissələrinə mətanətlə müqavimət göstərmiş, onların hərbi texnikasını və canlı qüvvəsini məhv etmiş, işğal edilmiş yaşayış məntəqələrinin azad edilməsində, Berlinin süqutunda fəal iştirak etmişdir.

Mirzə kişi o günləri tez–tez xatırlayır, müharibənin hər anı gözləri önündə canlanır. “Müharibə zamanı atılan hər bir mərmiyə baxmayaraq, hər döyüşdə irəliləmişik, canımız bahasına olsa da düşməni susdurmuşuq. Döyüşlər zamanı irəlilədikcə gözlərimiz qalaqqalaq insan cəsədlərinin şahidi olub. O günləri dəhşətlərin hələ də gözlərimin qarşısında canlanır.”



Müharibənin bütün dəhşətlərini xatırlamasına baxmayaraq, həmçinin Qələbə sevinci də Mirzə kişinin yaddaşına bir ömürlük həkk edilib. Müharibənin bitməsini, 9 May Qələbə günündən söhbət açarkən Mirzə kişinin gözləri parıldayır, o vaxtkı günü yenidən yaşamış olur və sevinc hissləri üz cizgilərindən asanlıqla hiss oluna bilir.

Qələbədən sonra müharibənin amansız dəhşətlərindən sağ çıxmış döyüşçülərimiz kimi Mirzə kişi də öz doğma kəndi-Alpouta qayıtmış, burada yaşayışına davam etmişdir.

*Qələbə Bayramın mübarək od köynəkli qəhrəman!*

# “Baş verən hadisələr hələ də gözümün önündədir” - 416-cı milli diviziyanın igid döyüşçüsü - Çingiz Ələkbərov

*İkinci dünya müharibəsindən 73 il keçməsinə baxmayaraq, Çingiz Ələkbərov qanlı döyüşləri dünən olmuş kimi xatırlayır. 93 yaşlı müharibə veteranı hələ də o günləri yadından çıxarmayıb. Veteran Çingiz Ələkbərovun xatirələrini oxucularımızla bölüşürük.*

“1925-ci ilin 30 avqust tarixində Bakı şəhərində anadan olmuşam. Atam 32 yaşında vəfat edib. Anam və məndən iki yaş böyük bacımla birlikdə yaşayırdıq. Orta təhsilimi başa vurduqdan sonra 1943-cü ilin fevral ayında orduya çağrıldım. Sumqayıtdakı ehtiyat alayında 6 ay məşq etdikdən sonra bizi cəbhəyə yola saldılar. 416-cı diviziyanın 1274 nömrəli minaatanlar batareyasında yer almışam. Cəbhə həyatım diviziya ilə birlikdə başlayıb. Orta məktəbi əla qiymətlərlə bitirmişdim, o vaxtki qaydalara görə orta məktəbi yaxşı qiymətlərlə bitirənlər istədikləri ali məktəbə imtahansız qəbul oluna bilərdilər. Mənim də belə bir şansım var idi. Ancaq vətən sevgisinə görə hərbi komissarlığa gedib, könüllü cəbhəyə göndərilməyimi xahiş etdim. 18 yaşın tamam olmamışdı, məni hərbi komissarlığa dəvət etdilər. O vaxt bizim məşhur "416-cı" diviziyanın Şimali Qafqazda bir çox uğurlu döyüşləri olmuşdu.

Əlbəttə, cəbhə həyatı tamam başqa idi. Biz Sanbeq təpələrinin yaxınlığında mövqe tutmuşduq. Almanlar hündürlükdə müdafiə xətti yaratmışdılar. Onlar bizi yuxarıdan müşahidə edirdilər.

Almanlar bizim mövqelərimizə istənilən an atəş açırdılar. Bir az biz həmin mövqelərdə durduq. Sonra Taqanroqa hücuma keçməyə başladıq.

Orada atəşin nə olduğunu, düşmən atəşindən qorunmaq üçün hansı üsullardan istifadə etməyi öyrənmişdim. Döyüşə tam hazır idim. Bizim cəbhədə qorxu hiss olunmurdu. Çünki hər an ölümlə rastlaşırdıq. Buna görə də ölüm bizə adiləşmişdi. Eyni zamanda qarşımıza qələbə qazanmaq tapşırığı qoyulmuşdu. Məndə döyüş ruhu o qədər yüksək idi ki, bir il doqquz ay səngərdə fasiləsiz, arxaya çəkilmədən döyüşmüşəm.

"416-cı diviziya" 1942-ci ildə Azərbaycanda təşkil olunmuşdu. Əsas döyüşçülər azərbayacanlılar idi. Amma döyüşlər davam etdikcə, ölən və yaralanan əsgərlərin yerinə yerli sakinlərdən gənclər qoşulurdu. Aramızda ruslar və ukraynalılar da var idi. Gürcülər və ermənilər isə çox az idi. Onlar da Azərbaycanda yaşayanlar idilər.

1943-cü ilin avqust ayında Azov dənizin sahillərində diviziya hücuma keçdi. Bizə 130-cu diviziya ilə bərabər, tank qoşunları da kömək edirdi. Diviziyanın Rastov vilayətində birinci qələbəsi Taqanroq şəhərinin azad olunması idi. Bu şəhər yazıçı Anton Çexovun doğma şəhəridir. Buna görə də diviziyaya Taqanroq adı verilmişdi. Döyüşlərimiz uğurla başlamışdı. Ordumuz irəlilədikcə Ukraynanın cənub istiqamətindəki torpaqlar azad edilirdi. Diviziyamız daha sonra Moldovanın paytaxtı Kişnyovu azad etdi. Prut çayına çatanda isə diviziya qısa müddətdə fərqləndiyinə görə "Taqanroq" fəxri adına iki orden əlavə olundu.

Daha sonra bizi Polşanın paytaxtı Varşavanın yaxınlığına göndərdilər. Orada döyüş hazırlığı keçəndən sonra Berlin istiqamətində hücum başladı. Polşanın bir çox şəhərlərini, yaşayış məntəqələrini düşməndən azad etdikdən sonra Polşa ilə Almaniya sərhəddindəki Oder çayına çatdıq.

Oderin sahilindəki Kusvin şəhərini azad etdikdə sonra böyük Berlin əməliyyatı başladı. Diviziyamız orada böyük qəhrəmanlıq göstərdi. Mayın 1-də Berlinin alınması ilə qələbəni qeyd etdik.

Berlin döyüşü çox gərgin keçmişdi. Bunu əvvəlki döyüşlərlə müqayisə etmək olmaz. Berlin 4 milyon əhalisi olan şəhər idi. Düzdür, əhalinin çoxu şəhərdən köçüb getmişdi, orada çox adam qalmamışdı.

Təsəvvür edin, nəhəng bir şəhərdə tanklardan, toplardan atəş açılırdı. Aviasiya şəhəri bombalayırdı. Belə bir şəraitdə bilmirdin ki, atəş haradan açılır, hansı pəncərə oyuğundan, hansı zirzəmidən...

İnsanlar hər addımda ölümlə üz-üzə idilər. Berlin döyüşlərində təqribən 320 min insan ölmüşdü. Qərbdə isə iddia edirdilər ki, guya biz Berlində 800 mindən çox itki vermişik.

Küçənin bir tərəfindən o biri tərəfə keçmək mümkün deyildi. Faşistlər bütün cəbhələrdən geri çəkilib, Berlində cəmləşmişdilər. Müttəfiqlərin qoşunları Berlinə girə bilmədilər. Onlar Almaniyadan axan Elba çayına qədər gəlmişdilər.

Berlində baş verən hadisələr hələ də yadımdan çıxmayıb. Bizim minaatanlar batareyasında komandirimiz Zakir Hüseynov idi. O, bizim alayın piyada hissəsindən yaşı 55-dən çox olan Əkbər adlı bir kişini onların komandirinin razılığı ilə batareyaya götürmüşdü. Əkbər yaşlı idi, alayla birlikdə irəli gedə bilmirdi.

Berlin döyüşlərində hündür mərtəbəli binanın zirzəmisində Əkbər kişini yanımızda saxlayırdıq. Həmişə deyirdi ki, məni 5 uşaq gözləyir, gözləyirəm müharibə qurtarsın, geri qayıdım. Biz də bu zirzəmidən müşahidə edirdik, döyüşürdük.



Almanlar bizim tərəfə atəş açdılar. Əkbər həlak oldu.

Həmin gün Berlində atəş kəsildi, almanlar təslim oldular. Onun həyatı isə müharibənin bitməsinə bir neçə saat qalmış bitdi.

Müharibədən 70 ildən çox vaxt keçir. Baş verən hadisələr hələ də gözümün önündədir.

Mən müharibədən 5 il sonra da Almaniyada qulluq etdim. Bizim diviziya güclü olduğuna görə onu Almaniyada saxladılar. Ordudan 1950-ci ilin yayında tərxis olundum.



Cəbhəyə gedəndə bir arzum vardı ki,sağ-salamat evə qayıdım, öz yerimdə yatım. Döyüşdə yatmaq deyilən anlayış yoxdur. Şinelimizi qarın üstünə salırdıq, əsgər yoldaşımla kürək -kürəyə verib uzanırdıq.

Qeyd edim ki, mən Hitlerin kabinetində də olmuşam. O zaman qaraul rəisi idim, Hitlerin iqamətgahını bizim diviziyaya tapşırmışdılar.

9 mərtəbəli zirzəmi idi. 4 mərtəbə aşağıya doğru otaqları gəzmək olurdu, qalan mərtəbələri su basmışdı. Hitlerin kabineti təxminən 80-90 kvadratmetr olardı. Onun yazı stolu da qalmışdı. İqamətgahı ələ keçirən əsgərlər kabineti talayıb çapmışdılar. Alman ordenləri, nişanları ayaqlarımızın altına səpələnmişdi. Hitlerin otağında kreslo və Almaniyanın bayrağı qalmışdı. Ay yarım orada karaul xidməti çəkdik. Aramızda Mixail Marquriç adlı yəhudi vardı. O, Hitlərin kabinetində oturub deyirdi ki, "Aman tanrım, gör, yəhudi balası harada oturub". Heç vaxt inanmazdıq ki, nə vaxtsa Hitlerin kabinetində olarıq. Hitler almanların düşüncəsini tamam dəyişmişdi.

Müharibə 1418 gün davam elədi. Dəhşətli müharibədə 5 orden aldım - 2 “Böyük Vətən Müharibəsi”, “Qırmızı ulduz”, “Şöhrət ordeni”, “Əmək bayrağı” ordeni və 20 medalım var. İlk təltifim “İgidliyə görə” - 1943-cü ildə Taqanroqun alınmasının şərəfinə verilən medaldır. Aldığım ordenlərin 4-ü döyüş ordenləridir.

Berlin ələ keçiriləndən sonra ölüm düşərgələrindən birinə daxil olduq. Orada müttəfiqlərimizin təyyarəçiləri, Almaniyanı bombalayan əsgərlər əsir saxlanılırdı.

Faşistlərin bütün işğal etdikləri yerlərdə bu cür düşərgələr var idi. Onlar əsirlərdən qul kimi istifadə edirdilər. Kimsə səsini çıxardan kimi, güllələyirdilər. Bizim əsirlərdən çoxu acından ölmüşdü. Almanlar onlara qarşı alçaldıcı hərəkətlər edirdilər. Yəhudilərə qarşı münasibət lap pis idi. Faşistlər yəhudilərin saçlarını qırxıb, lüt soyundururdular. Onlara olmazın işgəncələrini verirdilər. Ölüm düşərgələrində qaz ilə onları boğub öldürürdülər.”

# *Atası ilə eyni cəbhədə*

Ələkbərov Məmmədəli Əli oğlu 5 aprel 1926-cı il tarixdə Azərbaycanın əzəli torpaqlarından olan Göyçə Mahalının Basarkeçər rayonunun Aşağı Şorca kəndində anadan olub. 1941-1945-ci il Böyük Vətən müharibəsi başlayarkən atası Həsənov Əli Ələkbər oğlu 7 uşağı kənddə başsız qoyaraq, hərbi səfərbərliyə cəlb olunmuşdur. Həmin dövrdə ailənin bütün çətinlikləri və məsuliyyəti ailənin böyük oğlu 15 yaşlı Məhəmmədəlinin üzərinə düşmüşdür.



Nəhayət Ələkbərov Məmmədəli Əli oğlu da 1944-cü ilin oktyabr ayında hərbi xidmətə çağrılaraq Qori şəhərində "BTR Semyonov" və “BTR Diktoryev" tank əleyhinə silahların istifadəsi üzrə qısa müddətli xüsusi hərbi təlim keçərək ön cəbhəyə göndərilmişdir. Tank əleyhinə briqadada vuruşaraq 1945-ci ilin əvvəllərində Berlin Şəhərinin ətrafındakı döyüşlərdə böyük şücayət göstərmişdir. 1945-ci ilin aprel ayının sonlarında alman təyyarələrinin bombardımanı nəticəsində ağır yaralanmışdır.

Göstərdiyi şücaətlərə görə çoxlu sayda orden və medallarla təltif olunmuşdur. Uzun sürən müalicədən sonra hərbi xidmətdən təxris olunaraq doğma kəndinə qayıtmışdır. Aşağı Şorca kəndində müxtəlif vəzifələrdə çalışmışdır. 1951-ci ildə Qazax Dövlət Müəllimlər İnstitutunda Fizika-Riyaziyyat Fakültəsində ali təhsil almışdır. Yenidən kəndə qayıdaraq 1988-ci ilə qədər məktəb direktoru və müəllim işləmişdir. “Əmək veteranı” medalı ilə də təltif olunmuşdur

Hazırda Bakı şəhəri Suraxanı rayonunda yaşayır. Birinci qrup Böyük Vətən müharibəsi əlilidir. Tezliklə Qarabağda üç rəngli bayrağımızın dalğalanacağına əmindir.

# Bombardımançı təyyarənin heyət üzvü - veteran Damət Məcid oğlu Nəbiyev



Damət Nəbiyev 1925-ci ildə Yevlax rayonunun Vərvərə kəndində anadan olub. 1943-cü ilin fevralında 17 yaşında müharibəyə yollanır. O zaman Azərbaycandan iki hərbçidən biri kimi qəhrəmanımız bombardımançı təyyarəçi kurslarına göndərilir.

"1943-cü ilin fevraln 15-də mən orduya yazıldım. Ölkə təhlükədə idi və hər birimiz Vətənin müdafiəsinə qalxmalıydıq. Bizi Sumqayıtın ehtiyat alayına gətirdilər. Heç bir ay keçməmişdi, iki zabit gəlib aramızdan iki nəfəri Gürcüstandakı Aviasiya məktəbində oxumaq üçün seçdi. Onlardan biri də mənim idim", - deyə veteran xatirələrini danışır.



D. Nəbiyev Ukrayna, Polşa ətrafında döyüşlərdə iştirak edib və Berlinə qədər döyüş yolu keçib. "İndiyə kimi yadımdadır. Varşava üzərində yeddinci uçuşum idi, dostum yaralanmışdı, bizi atəşə tutmuşdular. Bir mühərrik zədələnəndən sonra, Visla şəhərinin ətrafında məcburi enməli olduq. Yaxşı ki, ərazi salamat idi və biz xilas olduq", -deyə Damət kişi xatırlayır.

Qəhrəmanımızın heyəti Varşavanın azad olunmasında iştirak edib, sonuncu döyüş uçuşunu isə onlar 1945-ci il 2 may tarixində Berlin səmasına edib. "İlk uçuşum Polşanın Varşava şəhərinə olub. Çünki Varşavanı almaq, doğurdan da, çox çətin idi. Varşavanın müdafiəsi üçün almanlar üç cərgə zenit artilleriya qurğuları yerləşdirmişdilər. Bizim üçün ən qorxulu döyüş Varşava şəhərinin ətrafında baş verib. Ona görə də, bizi səkkizinci uçuşdan sonra vurmuşdular. Bunun ardınca Poznan şəhəri sovet orduları tərəfindən mühasirəyə alınmışdı. Həmin vaxt bizim aerodromumuz elə Poznan şəhərinin öz aerodromunda idi. Hətta Hitler həmin vaxt mühasirədə qalan qoşunlarına kömək üçün təyyarələrlə oraya desant, hərbi silah-sursat, yeyinti və geyim ləvazimatları tökürdü. Ən nəhayətdə isə, Poznan şəhərində sovet ordularına təslim edildi.Sonuncu bizim ən gərgin döyüş uçuşumuz Berlin şəhərinə idi. 1945-ci ilin aprel ayının axırlarında bizim ordular artıq Berlin şəhərinin ətrafını zəbt etmişdi. Berlin şəhərinin ətrafında olan meşəlikdə alman ordularının çoxlu zirehli texnikaları yerləşdirilmişdi. Sovet orduları almanların bu bazalarını zərərsizləşdirmək üçün ardıcıl hərbi əməliyyatlar keçirirdi. Bizə əmr olunmuşdu ki, oranı tamamilə bombardman edərək, piyada qoşunların Berlinə daxil olması üçün yolun açılmasını təmin edək. Mən Qələbə gününədək döyüşmüşəm. Dostlarımın çoxu həlak olub, bir çoxu yaralanıb. Özüm sinəmdən və başımdan yaralanmışam, paraşutla tullananda, bilmirəm, necə sağ qalmışam. Biz həmişə qələbə çalacağımıza inanırdıq", -deyə müharibə veteranı sözünü bitirir.

Bundan başqa Damət Nəbiyev üç il Ağdamda, 1973-cü ilədək isə Gəncədə xidmət çəkib. O, uzun müddət cavanların hərbi hazırlığı ilə məşğul olub, mühazirələr oxuyub. Müharibə veteranı Azərbaycan torpağında böyüyüb başa çatdığı ilə fəxr edir. Qəhrəman veteranımız yaşının bu dövründə də gənclərin arasında olur. Müxtəlif tədbirlərdə onlara vətənpərvərlikdən, eləcə də, keçdiyi şərəfli döyüş yolu haqqında maraqlı faktları danışır. Damət Nəbiyev tez-tez cəbhə bölgəsində olur, əsgər və zabitlərlə görüşür.

# Döyüş zamanı hansısa silahı seçmirdik, qarşımıza gələn ilk silahı götürürdük

Hüseynov Cənnət Əli oğlu 1925-ci ildə Qədim Azərbaycan torpaqlarından olan Amasiyada anadan olmuşdur. 1944-cü ildə Böyük Vətən müharibəsinə aparılmışdır. Əvvəl Gürcüstanın Qori şəhərinə aparılmış, orada qısa zamana ərzində təlim keçdikdən sonra müharibənin ən alovlu cəbhəsinə göndərilmişdir. Berlin əməliyyatında iştirak etmiş, Almaniyanın istila edilməsi uğrunda döyüşmüşdür. Cənnət Hüseynov döyüşlərə siravi əsgər kimi qatılmış, daha sonra isə pulemyotçu olmuşdur. Onun öz dili ilə desək: "Müharibənin ən şiddətli vaxtları idi. Bizim heç bir şeydə seçimimiz yox idi. Yalnız bir seçim yolu vardı: irəli getmək və qələbə qazanmaq. Silahlar çox idi, müharibə zamanı hər şeydən çox silah istehsal olunurdu. Bizə ərzaqdan çox silh-sursat verilirdi. Döyüş zamanı hansısa silahı seçmirdik, qarşımıza gələn ilk silahı götürürdük".



9 may qələbə gününü Cənnət Hüseynov Berlin şəhərində keçirmişdir. Xatirələrindən "Qələbədən 73 il keçir, artıq çox şeyi unuduram, amma müharibədə elə xatirələrim var ki, onlar gözümün önündən getmir. Qələbə gününə qədər döyüşdük... Demək olar, hər küçə, hər tin uğrunda vuruşduq. Qorxulu və şiddətli döyüşlər keçdik, cəsarət və mərdliklə hər şeyə qalib gəldik. Gözümüzdən bir damcı da olsa yaş çıxmadı. Qələbə çaldığımızı bildikdə isə sevinc göz yaşlarımızı saxlaya bilmədik, hər kəs sevincdən uşaq kimi ağalayırdı."

Cənnət Hüseynov Böyük Vətən müharibəsi döyüşçüsü kimi müharibədən sonra marşal Jukovla şəxsən görüşmüşdür.

Berlin alınmasından sonra Cənnət Hüseynovun tabe olduğu diviziya Minsk şəhərinə köçürülmüşdür. O, 1951-ci ilə qədər Minsk şəhərində hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra quruculuq işləri ilə məşğul olmuşdur.



1990-cı ildə məcburi şəkildə ermənilər tərəfindən öz dədə-baba torpaqlarından köçürülmüşdür. Hal-hazırda Bakı şəhərində yaşayır. Vətən nisgili gözlərindən hiss olunur.

Cənnət Hüseynov el ağsaqqalı kimi tanınır, hər kəs ona qocaman veteran , gənclərə öyüd nəsihət verən insan kimi hörmət edir.



Respublikamızda veteranlara göstərilən diqqət və qayğıdan tam razıdır. Onu da qeyd edək ki, Cənnət Hüseynov ictimai işlərdə aktiv iştirak edir. Yaşının çox olmasına baxmayaraq tez-tez tədbirlərdə gənclərlə görüşür, onlara müharibənin dəhşətlərindən danışır, hər kəsi sülh və əminamanlığa səsləyir.

# Alovlu müharibənin şanlı əsgəri

Böyük Vətən müharibəsi I qrup əlili Famil Əliyev 1918-ci ilin əvvəlində Cəbrayıl rayonu Balyand kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Pedaqoji texnikomda təhsil alıb. Daha sonra 1939-cu ildə təyinatla indiki İmişli rayonunun ucqar bir kəndinə müəllim işləmək üçün göndərilib. II Dünya müharibəsi başlayan zaman digərləri kimi o, Sovet ordusu sıralarına hərbi xidmətə çağırılmışdır. Famil Əliyev 1941-1944-cü illərdə Oryol-Kursk qövsündə piyada qoşunlarında 34-cü diviziyanın tərkibində xidmət etmişdir. Cüssəli olduğu üçün ona PTR silahı (tank əleyhinə) verilib və nişançı təyin edilmişdir. PTR-in çəkisi 17 kiloqram, patronlarının birinin çəkisi 250 qramdır. Dediyinə görə xidmət etdiyi müddətdə bir neçə faşist tankını vurub sıradan çıxarıb. 1944-cü ildə gedən döyüşlərdə hücüm vaxtı mina atəşinə məruz qalmış, ağır yaralanmışdır. Yarasının müalicəsi üçün onu arxa cəbhəyə göndərmişlər, daha sonra isə doğulduğu rayona yola salmışlar.

Faşistlər üzərində qələbədən sonra Famil Əliyev yenidən müəllimlik işinə qayıtmış, eyni zamanda da Azərbaycan Pedaqoji İnstitutunun Tarix fakültəsində qiyabi təhsil almağa başlamışdır. 1945-ci ildən 1980-ci ilə qədər rayon məktəblərində direktor vəzifəsində çalışmış, sonralar isə Üç para kənd Soveti vəzifəsinə təyin olunmuşdur.



1993-cü ilin avqustunda erməni faşistləri torpaqlarımızı işğal edəndən sonra Famil kişi məcburi köçkün kimi Xətayi rayonunda müvəqqəti məskunlaşmışdır. Onun 6 övladı - 3 oğlan, 3 qızı var, hamısı təhsil almışdır. Böyük oğlu Fazil Abbasov ərəbşünas alimdir, əməkdar jurnalist və yazıçıdır. Ondan kiçik qızı və oğlu isə müəllimdirlər.

Famil Əliyev ilə söhbətimizdə ona dövlət tərəfindən diqqət və qayğı göstərildiyinə görə şəxsən cənab Prezidentimiz İlham Əliyevə, Respublika Veteranlar Təşkilatının rəhbərliyinə və Xətayi rayon Veteranlar Təşkilatının sədri Nəcibə xanım Məhərrəmovaya öz dərin minnətdarlığını bildirdi.

Famil Əliyev səbrsizliklə torpaqlarımızın işğaldan azad olacağı günü gözləyir. Qocaman veteranımız inanır ki, Prezidentimizin uğurlu siyasəti nəticəsində torpaqlarımız tezliklə işğaldan azad ediləcək və o, həmin günü 9 May Qələbə Günü sevincindən daha artıq sevinclə qarşılayacaq.

# Ömrümün ən xoşbəxt günü

1941-1945-ci il Vətən müharibəsi başlayanda onun 17 yaşı vardı. Həmyaşıdları kimi o da məktəbə gedir, boş vaxtlarında həyət - bacada valideynlərinə kömək edir, mal - qara dalınca qaçardı. Axşamlar isə ağzı üstə uzanıb qara çırağın zəif işığında dərslərini oxuyub yazardı. Tay - tuşları kimi böyük arzuların qanadlarında Bakıya gedib qayıdardı. Gələcəkdə aqranom olaraq, təsərrüfatçı olmaq, elə, obaya daha çox xeyir vermək arzusu ilə yaşayardı. Lakin qəflətən başlayan amansız müharibə çoxları kimi onun da arzularını ürəyində qoydu. On səkkiz yaşı tamam olan kimi hərbi komissarlığa çağırdılar.



1924 - cu ildə Mican kəndində dünyaya göz açan Niyaz Məsim oğlu Ağayev də ordu sıralarına yola düşdü. Onda onun 18 yaşı vardı. Özü dediyi kimi kənd uşağı çöl - bayır, dava qırğın görməyən, yaxşını pisdən ayıra bilməyən vaxtları idi.

1942 - ci ildə 3 - cü Belarusiya cəbhəsinin 158-ci mina alayında rabitəçi kimi xidmətə başlayır. Dəfələrlə yaralansa da sağalan kimi döyüşlərə qatılan Niyaz Ağayev Kurs, Latviya, Bryansk, Kensberq şəhərlərinin alman faşistlərindən alınmasında qəhrəmancasına döyüşmüşdür.

O günləri həm kədər, həm də sevinclə xatırlayan Niyaz dayı deyir: "1945 ilin may ayının ikisində Berlinə daxil olduq. Berlin uğrunda ölüm-dirim döyüşləri gedirdi. Məğlubiyyətləri ilə barışmaq istəməyən faşistlər bütün son imkanlarından istifadə etmək, Reyxstaqı təslim etməmək idi. Onlar yanılmışdılar. Sovet əsgərləri düşməni öz beşiyindəcə məğlub etdi. Bu döyüşlərdə ayağımdan yaralandım. Qələbəyə üç gün qalırdı. Almaniyanın Elbinq şəhərində xəstəxanada yatırdım. O günü ömrümün ən xoşbəxt günü sayıram. Sanki dünyaya yeni gəldim. Radioda müharibənin başa çatması xəbərini eşidəndə sevincimin həddi hüdudu yox idi.

Cəbhə həyatına Belarusiyadan başlayan Niyaz Ağayev qələbəni qarşılasa da doğma İsmayıllıya 1947-ci ilin may ayında qayıtdı. Sinəsini bir orden, on beş medal bəzəyir. Müharibədən qalib qayıdan Niyaz Ağayev dinc həyata başlayır. Kolxozda bir müddət aqronom, sonralar Meşə sənaye kombinatında texniki nəzarətçi işləyir. Hal - hazırda ömrünün 94-cü ilini yaşayan Niyaz baba vaxt tapanda istirahətini nəvələri ilə keçirir.- Getsin o günlər, birdə gəlməsin, deyir.

Biz də Niyaz dayıya uzun ömür, can sağlığı arzulayırıq.

Xalıqov Xalıq, Əmək Veteranı

# Qələbə gününü gözləyirəm

Müharibə deyiləndə bir anda gözlərimiz önündə dağılan şəhərlər, yandırılan və viran qalan ellər, kimsəsiz və yetim qalmış günahsız körpələr, şivən qoparan analar, qaçqınlar, didərginlər, həyatından bezən talesiz insanlar canlanır. Haqsızın haqlıya, gücsüzün güclüyə hökm etdiyi zamanda yaşayırıq. Ancaq güclü də dərk etməlidir ki, hər bir savaşın sonu sülhdür. Müharibə edənlər onun nəticələrini irəlicədən görə bilsəydilər, inanıram ki, bütün müharibələrə son qoyular, insan oğlu qurub yaradar, yer üzünü cənnətə döndərər, insanların üzündən gülüş, təbəssüm, sevinc əskik olmazdı. Hitler it kimi gəbərəcəyini əvvəlcədən bilsəydi, yəqin ki, xalqını rüsvayçı müharibəyə sürükləməz, əlli milyondan çox insan ömrünü İkinci Dünya müharibəsində itirməzdi.

O illərin acısını yaşayan həmyerlilərimizdən biri də Həsənalı İsmayıl oğlu Aslanovdur. O, 1924-cü ildə İsmayıllının Kürtməşı kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Çoxuşaqlı ailədə böyüyən Həsənalı dayı indi ömrünün 94-cü baharını yaşayır. Sakit təbiətli, son dərəcə mehriban və səmimi insan olan Həsənalı dayı o illəri belə xatırlayır.

-Yeddinci sinifi bitirib Bakıya getdim. Arzum neftçi olmaq idi. Bu minvalla bir il Bakıda neftçıxarma idarəsində işlədim. Arzum ali təhsil almaq, yaxşı neftçi olmaq idi. Amma, necə deyərlər, sən saydığını say, gör fələk nə sayır.

1942-ci ilin oktyabr ayında onu orduya çağırırlar. İsmayıllıdan Ucara qədər piyada gedirlər. Hərbi xidmətə Dərbənd şəhərindəki süvari dəstələrdən birində başlayır. 1942-ci ilin soyuq yanvar günlərindən birində gənc Həsənalı Mozdok ətrafında gedən qızğın döyüşlərdə iştirak edir. Od-alov, ölüm saçan bu döyüşdə Həsənalı ağır yaralanır və onu Stepanakerddəki hərbi xəstəxanaya gətirirlər. Yaraları ağır olduğundan bir müddət sonra onu Gürcüstandakı hərbi xəstəxanalardan birinə göndərirlər. Sağalandan sonra o yenidən döyüş cəbhəsinə dönür. Bu dəfə o Ukrayna, Jitomir və Stalinqrad uğrunda gedən qanlı döyüşlərdə igidliklə döyüşür.

-Vallah, o günləri yada salanda dəhşətə gəlirəm. Stalinqrad ətrafındakı döyüşlərdə heç kimin buradan salamat çıxacağına inanmaq olmurdu. Göydən təyyarələrin, qarşıdan isə artilleriya atəşlərinin altında qalmışdıq. Qızğın döyüşlər gedirdi. Hamımız bir amal uğrunda döyüşürdük: düşmənin cəbhəsini yarmaq, onu məhv etmək!



Bu döyüşlərdən birində hiss etdim ki, sol qolum qırıldı. Qəlpə qolumu qırmış, bir dəridən asılı qalmışdı. Gözlərimi açanda xəstəxanada olduğumu görəndə mat qaldım: - Məni bura necə, nə vaxt gətiriblər. Altı aydan sonra məni evə göndərdilər. Onda 1944-cü ilin sonları idi.

Doğma Kürtməşıya yaralı qayıdan Həsənalı tezliklə sənədlərini Şamaxıdakı Kənd Təsərrüfatı Texnikomunun "Mühasibatçılıq" şöbəsinə verir və qəbul olur. Mühasib kimi rayonun bir sıra idarə və təşkilatlarında işləyir. İyirmi səkkiz il rayon Kənd Təsərrüfatı İşçiləri Həmkarları təşkilatının sədri olub. 1950-ci ildə Bakı Rabitə Texnikomunu da bitirib.

Ömrünün müdrik çağlarını yaşayan Həsənalı dayı 4 oğul, 4 qız atasıdır. Özünün dediyi kimi, əlli nəvəsi, otuz səkkiz nəticəsi, bir kötücəsi var. Allah sağ eləsin!

Həsənalı dayının ən böyük dərdi Qarabağdır. Deyir ki, Qarabağı, əsarətdə olan torpaqlarımızı düşmən tapdaqlarından azad olunacağı günü səbirsizliklə gözləyirəm. Allah mənə o qələbə gününü qismət eləsin!

Əlaləm Babayev,
İsmayıllı rayon Veteranlar Təşkilatının sədri

# Artıq alman faşizmi üzərində qələbənin yaxınlaşması hiss edilirdi, Vətəni qorumaq üçün o da əsgəri xidmətə çağrılır



***402-ci diviziyanın əsgəri***

Məstəliyev Şükür Fətulla oğlu 1926-cı ildə Yardımlı rayonunun Çayüzü kəndində anadan olmuşdur. Atası Fətulla kişi kolxoz quruculuğunda fəal iştirak etmiş, könüllü surətdə kolxoz hərəkatına qoşulmuşdur. Şükür də kiçik yaşlarından əməyə alışmış, kasıb ailəni dolandırmaq üçün gənc yaşlarından atası ilə yer şumlayar, əkin əkər, taxıl biçər, ailəyə köməklik edərdi.

Artıq alman faşizmi üzərində qələbənin yaxınlaşması hiss edilirdi, Vətəni qorumaq üçün o da əsgəri xidmətə çağrılır. 1944-cü ildən 1945-ci ilədək 402 diviziyanın 64-cü alayında hərbi xidmətə başlayır. Xidməti dövründə bu gənc oğlan verilmiş bütün tapşırıqları vaxtında yerinə yetirir və komandirlərin sevimlisinə çevrilir. Onu nümunəvi xidməti yerinə yetirən bir əsgər kimi alayda hamı tanıyır. Müharibə bitdikdən sonra Şükür kişi də sağ- salamat öz doğma kəndlərinə qayıdır, yaşadığı Çayüzü kəndində hamının sevimlisinə çevrilir. Kolxoz, təsərrüfat işlərində fəal iştirak edən Şükürün bacarıq və işgüzarlığını görən kolxoz rəhbərliyi onu sahə briqadiri, daha sonra isə anbar müdiri vəzifəsinə təyin edir. Bir sözlə kəndin taleyi ona tapşırılır. Yaxşı işlədiyinə görə rəhbərlik tərəfindən dəfələrlə təşəkkür alır. 1982-ci ildən isə Çayüzü kənd orta məktəbində təsərrüfat müdiri vəzifəsində çalışmağa başlayır. Sovet dönəmi dağılana



qədər bu vəzifəni icra edən Şükür kişi gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində müəllimlərlə yanaşı fəaliyyət göstərir.

Şükür kişi bir veteran kimi fəxr edir ki, yaşadığı kənddə Çayüzünün əfsanəvi qəhrəmanı Mehdi Hüseynzadənin heykəli ucalır. "Naməlum əsgər abidəsinin kompleksini ziyarət edəndə cavanlaşıram. Böyük Vətən müharibəsində döyüşdüyüm əzablı günlər yada düşür." Şükür kişi sevinir ki, iki tarixi abidənin yaşadığı kənddə ucaldılmasında, abidələrin ərsəyə gəlməsində onun da əməyi olmuşdur. Hər il çağırışçılar bu abidənin önündə and içib hərbi xidmətə gedirlər. Rayon tədbirlərinin bu abidələr önündə keçirilməsi ona zövq verir. Şükür kişi bir veteran kimi deyir: "Biz sevinirik ki, H.Əliyev tərəfindən qoyulan ənənələr bu gün də prezident İlham Əliyev tərəfindən çox ləyaqətlə davam etdirilir. Biz bu siyasəti bəyənir, gördüyü işləri dəyərləndiririk. Mən özümü xoşbəxt sayıram ki, hər dəfə olduğu kimi, aprel ayının 11-ndə keçirilən prezident seçkilərində mən birinci olaraq səs verdim. Əminəm ki, çiçəklənən Azərbaycanın gələcəyinə, sabitliyinə, davamlı inkişafına səs vermişəm. Bizi gələcəyə aparan doğru, işıqlı yol-İlham Əliyev yoludur."

## *Çətin amma şərəfli, rəşadətli yol keçdik*

Cəfərov Güləli Pirəli oğlu 1925-ci ildə Yardımlı rayonunun Cirinbel kəndində anadan olmuşdur. Onun ilk təlim-tərbiyəsi ilə atası Pirəli kişi məşğul olmuşdur. İbtidai və natamam orta təhsili əla qiymətlərlə doğma kəndində başa çatdırmış, istedadlı bir gənc kimi müəllim çatışmadığı üçün ona dərs demək hüququ verilmişdir. Rus dilini bildiyindən 1935-ci ildə rayon məhkəməsində 1 maya həsr edilmiş təntənəli yığıncaqda rus dilində çıxış etmiş, bu səbəblə də onu mükafatlandırmışdırlar. Rayonun Xanbulaq kəndində müəllim işləyən Güləlini 1942-ci ilin iyul ayında əsgəri xidmətə çağırırlar. Cəbhəyə getmək onun çoxdankı arzusu idi. Beləliklə Güləli Cəfərov 1942-ci ilin iyul ayından 1944-cü ilin aprel ayınadək cəbhədə olur, döyüşlərdə fəal iştirak edir. Qəhrəmanlıq nümunələri göstərir. Ürəyindəki arzusuna çatmaq üçün qələbə ruhu ilə döyüşən Güləli çətin, ancaq şərəfli bir döyüş yolu keçmişdir. Gürcüstanda Avçala deyilən ərazidən döyüşə yollanmışdır. 1942-ci ildən 1943-cü ilin ortalarınadək Zaqafqaziya cəbhəsinin şimal ordu qrupunun tərkibindəki dağ alpinist dəstəsinə göndərilir. Novorossiyski şəhərinin azad olunmasında gedən döyşlərdə fəal iştirak edir. Xatirələrini danışdıqca Güləli müəllimi qəhər boğurdu. Gözünün önündə həmin hadisələri canlandırmaq, keçdiyi döyüş yolunu xatırlamaq ona çətin gəlirdi. Güləli müəllim qeyd edir ki, "rus dilini bildiyim üçün məni 18-ci diviziyanın tərkibinə verdi-



lər. Məni hərbi yazar təyin etdilər. Verilmiş tapşırıqları canla başla yerinə yetirirdim. Lakin bir müddət sonra yara aldığım üçün məni 1944-cü ildə aprel ayında evə buraxdılar." Qayıtdıqdan sonra kəndə rus dili müəllimi təyin edilən Güləli daha sonra, rayon prokuroluğunun katibi, rayon XTS icraiyyə komitəsinin təlimatçısı vəzifələrində çalışır. Uzun müddət gənc nəslə rus dilinin tədrisi ilə məşğul olur. Eyni zamanda Mirzə Güləli ərəb, fars dillərinin də bilicisidir, həm də tanınmış axunddur. Mirzə Güləli 12 uşaq atasıdır. Çoxlu sayda nəvə, nəticə və kötücəsi vardır. Hazırda gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində çox ciddi işlər görməkdədir, həmçinin rayon veteran təşkilatına yaxından köməklik edir. Rayon veteranları onunla fəxr edirlər. Allah amanında Hacı Güləli!...

## İGİD KƏŞFİYYATÇI

Məhmətov İzzət Məmmədsəfa oğlu 1925-ci ildə Astara rayonun Pensər kəndində anadan olmuşdur. 1940-cı ildə Lənkəran Pedaqoji Texnikumuna daxil olmuşdur. Oranı bitirdikdən sonra 1943-cü ildə ordu sıralarına çağrılaraq Smolensk şəhərinə yola salınmışdır. Döyüşlərdə ayağından yaralanmış və bir neçə gün hərbi hospitalda müalicə olunduqdan sonra yenidən Belarusiya cəbhəsində gedən döyüşlərdə iştirak etmişdir. Belarusiya cəbhəsində Marşal Rakasovskinin komandanlığı altında gedən döyüşlərdə 7 nəfərdən ibarət kəşfiyyat qrupunun tərkibində Vitepsk şəhərində 8 alman əsgərini girov götürərək cəbhə komandanlığının rəhbərliyinə təhvil vermişlər. 1944-cü ildə döyüşlərdə ağır yaralanaraq bir müddət hospitalda müalicə aldıqdan sonra 2-ci qrup əlil kimi ordudan tərxis olunaraq doğulduğu rayona qayıtmışdır. Müharibədən sonra rayonun Təngərüd, Hamoşam, Əsxanakəran, Pəlikəş, Burzubənd və Pensər kəndlərində müəlim işləmişdir. 1986-cı ildə 1-ci qrup əlil kimi təqaüdə çıxmışdır.

İzzət müəllim mütəmadi olaraq məktəblərdə şagirdlər ilə görüşür, onların vətənpərvərlik ruhunda tərbiyə olması üçün əlindən gələni əsirgəmir, keçdiyi şərəfli döyüş yolundan bəhs edir. Onun 7 oğlu, 2 qızı, 22 nəvəsi və 33 nəticəsi vardır.

Ən böyük arzusu torpaqlarımızın Erməni təcavüzkarlarından azad olunmasıdır və bunun tezliklə baş verəcəyinə inanır. Veteran İzzət Məhmətov ordumuz düşmənin öhdəsindən layiqincə gəlməyə qadir olduğunu və bunu 2016-cı ilin aprel döyüşləri ilə bir daha sübut etdiyini bildirir.

İzzət müəllim müharibədə göstərdiyi igidiliyinə görə birneçə orden və medallarla təltif



olunmuşdur. Dövlətimiz tərəfindən ona pulsuz olaraq minik avtomobili verilmişdir. Böyük Vətən müharibəsinin 70-illiyi ilə əlaqədar Belarusiya respublikasının prezidenti Lukaşenko tərəfindən Belarusiyanın azad olunmasında göstərdiyi şücaətə görə təşəkkür məktubu almışdır. Dövlətimizin veteranlara göstərdiyi qayğıdan tam razıdır.

1941-1945
AZƏRBAYCAN VETERANI

# O müharibə ölüm-qalım müharibəsi idi

Nəsimi Rayon Veteranlar Təşkilatının sədri İsmayıl Fərəcov Mövsüm oğlu 1 iyul 1924-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda dünyaya göz açmışdır. 1942-ci ildə hərbi xidmətə çağırılan və Kazım İsmayılovun rəhbərlik etdiyi 77-ci Stavrapol diviziyasında qulluq edən İsmayıl Fərəcov müharibənin ən alovlu vaxtlarında daim ön cəbhədə olmuş, eyni zamanda alman ordusunun dərinliklərində kəşfiyyatçı kimi böyük hünər göstərmiş qəhrəman döyüşçülərimizdəndir. Mozdokdan başlamış Berlinə kimi, Moldoviya, Çexoslovakiya, Rumıniya, Polşa, Macarıstanda vuruşmuşdur.



Müharibədə hər anı dünən kimi xatırlayır. İllər xatirələri daha da möhkəmləndirib sanki: Tez-tez çətin vəziyyətlərlə üz-üzə qaldıqlarını deyən qəhrəman kəşfiyyatçı iki dəfə yaralanıb: "Alman ordusunun dərinliklərinə qədər gedib çıxmışdıq. Bir dəfə ot tayasının içərisində gizlənib müşahidə aparırdıq ki, Sovet ordusu oranı bombalamağa başladı. Almanlarla bərabər biz də yaralandıq. Gicgahıma qəlpə girib, indi də əziyyətini çəkirəm. Bir də kürəyimdən yara almışam. Yenə kəşfiyyat çıxışlarımızın birində, Dnepr çayını keçirdik ki, almanlar bizim gəldiyimizi anlayıb atəşə tutdular. Müdafiəmiz zəif olduğundan geri qayıtdıq. Orada itkilərimiz çox oldu. Buna baxmayaraq ruhdan düşmədik, növbəti dəfə yenə getdik və almanları yerlərinə oturtduq".

Müharibənin hər anı dəhşət və ölüm idi. "Öldürdüyüm almanların sayı-hesabı yox idi. Qeyri-təvazökar səslənsə də, şişirdir desələr də, and içirəm ki, bu, həqiqiətdir. O müharibə ölüm-qalım müharibəsi idi. Heç kim sağ qayıdacağını düşünmürdü. Əgər gecə dəstəmizdə 60-70 nəfər var idisə, sabah xəbər çıxırdı ki, 20-25 nəfəri



həlak olub. Gecə-gündüz vuruşurduq. Qışda əziyyətimiz daha çox olurdu"

İsmayıl kişi Stavrapoldan yadigar gətirdiyi saatını hələ də qolunda gəzdirir və işlədiyini deyir. Saatı kimi özü də sağlam və gümrahdır. 74 ildir ki, hər dəfə bu saata baxdıqda müharibəni və silahdaşlarını xatırlayır.

İsmayıl müəllim hal-hazırda Respublikanın ictimai həyatında fəallığı ilə seçilən veteranlarımızdandır. O, Nəsimi rayon Veteranlar Təşkilatının sədri olaraq daima öz ictimai işləri ilə seçilir, həmçinin rayon ərazisində olan veteranların fəallığına da hər zaman şərait yaradır.

# Qələbə çalmışıq, müharibə bitdi!"

Məlikov Bağır Məşədi İbrahim oğlu 1924-cü il oktyabr ayının 1-də Bakı şəhərinin Nardaran qəsəbəsində anadan olub. Uşaqlıq dövrü Nardaranda keçib. Peşə məktəbində çilingərlik sənətinə yiyələndikdən sonra gəmiqayırma zavodunda işə başlayır.

Böyük Vətən müharibəsi milyonlarla insan kimi Bağır Məlikovun da gənclik xəyallarını əlindən almışdır. 17 yaşı tamam olmamış-1942-ci ilin



yanvarında müharibənin ön səngərinə göndərilmişdir. 353-cü diviziyanın 1147 alayında sıravi əsgər, daha sonra isə yefreytor kimi döyüşlərə qatılmışdır.

Moldova, Ruminiya, Macarıstan, Avstriya, Bolqarıstan, eləcə də Budapeşt, Sofiya, Belqrad, Berlin şəhərlərinin alınmasında iştirak etmişdir. Qatıldığı döyüşlərin hər birində əsl azərbaycanlı kimi hünər göstərməyi bacarmış, doğulduğu torpağın adını yüksəklərə qaldırmışdır. Müharibə dövründə göstərdiyi şücaətlərə görə bir neçə dəfə mükafatlandırılmışdır. 30-dan çox orden və medallarla təltif olunmuşdur.

Hər bir II dünya müharibəsi iştirakçısı kimi Bağır Məlikovun da heç zaman unutmayacağı xatirələri yaddaşına əbədi yazılmışdır. Ömürünün ən gözəl illərini müharibədə keçirmiş və müharibənin acılı-şirinli anlarını xatırlayarkən gözləri dolur, səsi kövrəkləşir, sanki tarix təzədən təkrarlanacaq Bağır Məlikov üçün...

Beş dəfə yaralanıb kontuziya alsa da, batalyon sanitar hissələrində müalicə olunaraq yenə döyüşlərə qatılıb. Kəşfiyyat sahəsində də özünü doğruldan B.Məlikov alman həbs düşərgələrinə hücumlarda da fəal iştirak edərək ingilis, fransız əsirlərinin azad edilməsində əlindən gələni əsirgəməyib.

Müharibə dövrü xatirələrindən danışan Bağır kişi bəzilərini artıq xatırlaya bilmədiyini qeyd edir. Lakin hələ də yaddaşından silinməyəcək bəzi xoş xatirələri qalmaqdadır. Ən yadda qalan xatirələrindən biri kimi Bolqarıstanın Sofiya şəhərinin azad olunması ilə bağlıdır.



Sofiya şəhərində olarkən orada yaşayan türklərlə tanış olmuş, onu qonaqpərvərliklə qarşılamışlar. Hətta bir neçə gün orada bir türkün evində qonaq qalmışdır, onların arasında səmimi münasibət yaranmış, az müddət olsa da Bağır Məlikov müharibənin acılarını unutmuş, özünün doğmalarının yanında hiss etmişdir.

9 May Qələbə günü Bağır Məlikov üçün ən əlamətdar günlərdən biridir. O gün onun yaddaşına əbədi qazınmışdır. "Elba çayının yaxınlığındakı meşədə idik. Gecə xəbər gəldi ki, faşistlər üzərində qələbə çalmışıq. Sevincimizin həddi-hüdudu yox idi, səhərə kimi silahlardan göyə atəş açıldı, bayram etdik. Soruşduqda artıq "Qələbə çalmışıq, müharibə bitdi!" sədaları hər bir əsgərin dilindən fəxrlə, ehtişamla səslənirdi. Nə edəcəyimizi bilmədik. Özümdən aslı olmayaraq gözlərimdən yaş axmağa başladı".

Müharibə 1945-ci ildə bitsə də, mən geri 2 il sonra döndüm. Baxmayaraq ki, ikinci qrup əlil idim. Ailəmizdən cəbhəyə qardaşlarım Kazım, Məlik, bacım Məsmə də getmişdilər. Geri dönən isə bacımla mən oldum... Müharibə çox insanların həyatına son qoydu.

Yenidən zavodda işləməyə başladım, çətin zamanlar idi - ölkə ağır müharibədən çıxmışdı. Ailəni dolandırmaq asan deyildi - beş uşaq və yoldaşıma çörək gətirən təkcə mən idim. Dəfələrlə təhsilimi davam etdirmək təklif olunsa da, bunu həyata keçirmək qismət olmadı, ailə qayğıları çox idi. Müharibənin dəhşətlərini görən insan üçün gecə-gündüz işləyib balalarını böyütmək əsl səadət idi. Müharibə dəhşətdir, hər gün ölümlə qarşılaşır, şəhərlərin, evlərin yandığını görürsən... Rostovu iki dəfə almanlar almış, iki dəfə də biz onu geri qaytarmışdıq. Stalinqradın mühasirəsi də dəhşət idi. Almanlar həm də fəal təbliğat aparırdılar. Təyyarələrlə vərəqələr atıb bizi öz tərəflərinə çəkmək istəyirdilər. Amma döyüşçülərdə düşmənə nifrət güclü olduğundan onların səyi boşa çıxırdı.

Ukrayna cəbhəsində sonralar Sovet İttifaqı Qəhrəmanı olan Məzahir Abbasovla görüşmüşdük - igid, qorxmaz insan idi. Biz azərbaycanlılar həmişə öz davranışımız, hünərimizlə xalqımızın adına şərəf gətirməyə çalışırdıq. O yerlərdə indi də bizləri xatırlayır, şəkillərimizi qoruyub saxlayırlar. Dəfələrlə döyüşdüyüm şəhərlərdən dəvət almışam. Donetsk, Odessa, Nikolayev şəhərlərinə getmiş, döyüşdüyüm yerləri bir də görmüşəm.

Müharibədən qayıtdıqdan sonra dinc quruculuq işləri ilə məşğul olmuş, əməksevərliyi ilə fərqlənmişdir. Müharibə və əmək veteranıdır, Prezident təqaüdçüsüdür, səkkiz nəvəsi var. Bu yaşında onu darıxdıran torpaqlarımızın işğal altında olmasıdır. İstəyir ki, ömür vəfa qılsın, onların da azad olunmasını görsün. Bu gün də özünü Vətən qarşısında müsəlləh əsgər kimi hiss edir. Qocaman veteranımız gənclərə daima tövsiyələr verir, onları vətəni sevməyə, yaxşını yamandan ayırmağa, təhsilli, savadlı olmağa səsləyir.

Dövlətimiz tərəfindən veteranlara göstərilən diqqət və qayğıya görə şəxsən prezident cənab İlham Əliyevə öz dərin təşəkkürünü bildirir.

# Yardımlı veteranları faşizm üzərində Qələbənin 73-cü il dönümünü ləyaqətlə qarşılayırlar

II Dünya müharibəsi Azərbaycan tarixinə mühüm dövrlərdən biri kimi daxil olmuşdur. Qəhrəman oğul, qızları və təbii sərvətləri ilə qələbənin qazanılmasında ən başlıca amil olan Azərbaycan, bu gün qələbənin qeyd olunmasında ən çox haqqı çatan ölkələrdən biridir.



Böyük Vətən müharibəsi veteranları artıq 73 ildir ki, bizim üçün həyat nümunəsi qəhrəmanlıq simvoluna çevrilmişdir. Hər birimiz onların həyatından, şücaətindən nəsə öyrənməyə cəhd etmiş, onlara bənzəməyə çalışmışıq. Bir müddət bu insanlara diqqət və qayğı müəyyən səbəblərdən azalsa da, ulu öndər Heydər Əliyevin siyasəti nəticəsində bu problem öz həllini tapmışdır. Məhz Heydər Əliyevin səyi nəticəsində bu kateqoriyadan olan insanlar dövlət hesabına mənzil, xüsusi nəqliyyat vasitəsi ilə təmin edildi. Eyni zmanada 9 may-Qələbə gününün yenidən dövlət bayramları sırasına daxil edilməsinə sərəncam verildi. Bu uğurlu siyasətin davamçısı olan cənab, möhtərəm Prezidentimiz İlham Əliyev cənabları 2003-cü ildən bu günə qədər II dünya müharibəsi iştirakçılarına göstərilən qayğını davam etdirərək, daha da gücləndirdi, ön plana çəkdi. Onun bu uğurlu siyasəti 11 aprel 2018-ci il tarixində Prezident seçkilərində özünü doğrultdu. Bütün veteranlar bir araya gələrək öz prezidentinə yenidən səs verdi. Bu bütün Azərbaycan xalqının qələbəsi idi. Bu sahədə veteranların rolu danılmazdır.

Böyük Vətən müharibəsi dövründə Yardımlıdan 4519 nəfər müharibəyə getmiş, onlardan 3243 nəfəri həlak olmuş, itkin düşmüş, 1276 nəfəri isə şikəst və yaralı halda geri qayıtmışdır. Yardımlı Rayon Veteranlar Təşkilatının tərkibində fəallıq göstərən 5 nəfər BVM iştirakçısı, 28 nəfər arxa cəbhə veteranları, 61 nəfər onların dul qalmış arvadları, 35 nəfər Əfqanıstan veteranı,110 nəfər əmək, 28 nəfər hüquq mühafizə orqanları, 172 nəfər Qarabağ, 15 nəfər Silahlı Qüvvələr, 4 nəfər Çernobıl Əlilləri, 67 nəfər şəhid ailələri veteranları və Respublika veteranlar təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov cənabları qarşıya qoyduğumuz vəzifələri ləyaqətlə yerinə yetirəcək, dövlətimizə, Prezidentimizə həmişə sədaqətlə bağlı olacağıq.

Hüseyn Vəliyev
Yardımlı Rayon Veteranlar
Təşkilatının sədri

# Qəhrəman veteranımızla görüş yaddaşımızdan silinməyəcəkdir

***Göygöl rayonunda veteranlar xüsusi diqqət və qayğı ilə əhatə olunmuşdur. Mütəmadi olaraq onlarla görüşlər keçirilir, problemləri dinlənilir, ehtiyacı olanlar maddi yardımla təmin edilir. Həmçinin rayonumuzda veteranlara vaxtlı-vaxtında tibbi yardım göstərilir. 9 may qələbə günü hər il yüksək səviyyədə qeyd edilir. Qələbənin 73-cü il dönümünə də hazırlıqlar davam edir.***



Göygöl rayonun Veteranlar Təşkilatının kollektivi 1941-1945-ci il Böyük Vətən müharibəsi veteranı Məmmədov Dəmir Əlirza oğlunun yaşadığı evdə olmuş, onunla görüşmüş, Qələbə Günü münasibəti ilə əvvəlcədən təbrik etmişdirlər. Dəmir kişi adı kimi özü də dəmir kimi görünürdü. O, 15 iyun 1925-ci ildə Göygöl rayonunda anadan olub. Birinci qrup müharibə əlilidir. Onunla söhbət edərkən suallarımıza ətraflı cavab verdi. Müharibə xatirələrini, o günlərin şirinli-acılı xatirələrini bizimlə bölüşdü. “1941-ci ildə yaşım az da olsa ucaboylu olduğum üçün məni də cəbhəyə göndərdilər. Birinci bizi Gürcüstana apardılar, orada yoxlayandan sonra Ukraynaya, orada da bir ay qaldıqdan sonra Moskvanın müdafiəsinə getdik. Almanlar Moskvadan çıxdıqdan sonra Volqaqrada hücuma keçdilər və quru yollarını tutdular. Alman cəbhəsində yanacaq çatışmırdı, alman əsgərləri çox sevinirdilər ki, Bakıya çatacaqlar, çünki onların əsas məqsədi Bakını tutmaq idi. Neft Bakısına çatmağa 7-8 yüz kilometr qalıb. Quru yolları faşistlərin nəzarəti altında olduğundan bizim hərbi texnikamıza da yanacaq çatışmırdı. Amma qəhrəman Bakı neftçiləri gecə-gündüz işləyib Xəzər dənizi vasitəsilə Krasnivodskiyə-Türkmənbaşı limanına yanacaq göndərirdilər.

